

*Doğma, canım-varlığım qədər sevdiyim*
*Azərbaycanım mənim qibləgahımdır*

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 52 (24.435)

*30 dekabr 2024-cü il, bazar ertəsi*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Milli ideologiya, milli həmrəylik

## *Müstəqilliyə, ərazi bütövlüyünə, suverenliyə aparan yol*



Səhifə ➡ 2

## Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 28 dekabr 2024-cü il*

## Qaz təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qaz təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin funksiyalarının Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə ötürülməsinin təmin edilməsi ilə bağlı bir ay müddətində zəruri tədbirlər görsün;

1.2. üç ay müddətində:

1.2.1. bu Sərəncamın 1-ci hissəsi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2.2. bu Sərəncamın 1-ci hissəsinə uyğun olaraq, müvafiq səlahiyyətin Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə ötürülməsi ilə əlaqədar dövlət əmlakı ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 dekabr 2024-cü il*

## Naxçıvan Muxtar Respublikasında yeni istilik elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar dövlət-özəl tərəfdaşlığı imkanlarından istifadə edilməklə Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi istehsalının artırılmasını və elektrik enerjisi ixracının həyata keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti beynəlxalq təcrübə nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikasında yeni istilik elektrik stansiyasının tikintisi üçün potensial tərəfdaş investorlarla danışıqlar aparılmasını, məsləhətçi şirkətlərin cəlb edilməsini, Texniki İqtisadi Əsaslandırmanın və digər layihə sənədlərinin hazırlanmasını və layihənin həyata keçirilməsi ilə bağlı yekun təkliflərin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla beş ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsini təmin etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və digər aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə tikiləcək yeni istilik elektrik stansiyasının ötürücü şəbəkəyə qoşulması və bundan irəli gələn digər zəruri infrastrukturun təkmilləşdirilməsi üzrə işlərin maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin layihənin həyata keçirilməsi mərhələsinə uyğun olaraq dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə (investisiya xərcləri) nəzərə alınmasını təmin etsin;

2.2. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və digər aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

3.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla istilik elektrik stansiyasının tikilməsi üçün torpaq sahəsi ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə təqdim edilməsini və bundan irəli gələn məsələlərlə əlaqədar müvafiq tədbirlər görülməsini bir ay müddətində təmin etsin;

3.2. "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə istilik elektrik stansiyasının Naxçıvan Muxtar Respublikasının enerji sisteminə qoşulması, enerji sisteminin tənzimlənməsi və Naxçıvan Muxtar Respublikasının daxili tələbatının ödənilməsi üçün zəruri olan elektrik enerjisi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 23 dekabr 2024-cü il*

# Milli ideologiya, milli həmrəylik

## Müstəqilliyə, ərazi bütövlüyünə, suverenliyə aparan yol



Dünyanın ayrı-ayrı yerlərində yaşayan, fəaliyyət göstərən hər bir azərbaycanlının dilindən qopan sözünü, könlündən duyulan səsini, əməlini bir ideya altında, vahid amal uğrunda birləşdirməklə xalqımız qarşısında əvəzolunmaz tarixi xidmətini həyata keçirdi Ümummilli Liderimiz Heydər Əliyev. ***“Bizim hamımızın bir vətəni var – bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq Azərbaycançılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır”***, – deyən dahi şəxsiyyət Azərbaycançılıq ideologiyasını, milli həmrəyliyi inamlı sabahlar, işıqlı gələcək naminə hər bir həmvətənimizin həyat qayəsinə çevirə bildi. Bu ideologiya, birlik Ulu Öndərin 1969-1982-ci illərdə ölkəmizə birinci rəhbərliyi dövründə reallaşdırdığı onilliklərə bərabər misilsiz işlərində, 1990-cı ildə doğulduğu torpağa tarixi qayıdışında, 1990-1993-cü illərdə Naxçıvandan başlayan xilaskarlıq missiyasında pərvəriş tapdı. Azərbaycançılıq öz təntənəsini muxtar respublikada SSRİ kimi nəhəng imperiyaya qarşı çıxaraq mütərəqqi tarixi addımlar atan şəxsiyyətin qətiyyətində, qışın şaxta-boranına rəğmən sərhəd dirəklərini söküb, bahar təravətli “Ümid” körpüsü çəkməklə həsrət buzlarını qıran dəmir biləklərdə, 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında qəbul olunan tarixi Qərarda yaşayıb, yaşayır, yaşayacaq...

### *Milli həmrəyliklə milli qurtuluşa*

Bəli, Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə 1991-ci il dekabrın 16-da keçirilən Ali Məclisin sessiyasında qəbul edilən tarixi Qərarla 31 dekabr günü muxtar respublikada ilk dəfə olaraq həmrəylik bayramı kimi qeyd edildi, bu qətiyyətli addım dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində həyata keçirilən tədbirlərin kütləvi xarakter almasında mühüm rol oynadı. Dünya azərbaycanlılarının vahid ideologiya ətrafında təşkilatlanması və birləşməsi istiqamətində Ulu Öndərin həyata keçirdiyi uzaqgörən siyasət həm də müstəqil Azərbaycanın gələcək inkişafına əsaslı zəmin yaradan faktorlardan biri kimi tarixə düşdü.

Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan mərhələsi Azərbaycanın qurtuluş, özünə qayıdış dövrü kimi xarakterikdir. Bunun birinci səbəbi, sözsüz ki, həmin dövrdə muxtar respublikada görülən işlərdə prinsip etibarilə milli birlik və həmrəyliyin ön sırada dayanmasıdır. Bəli, işğal təhlükəsi ilə üz-üzə, dünyadan, demək olar ki, təcrid vəziyyətdə qalmış Naxçıvanın sabaha gedən yolu, məhz muxtar respublika sakinlərinin Ümummilli Liderimizin ətrafında sıx birləşməsi, milli həmrəylik nümayiş etdirməsi sayəsində mümkün idi və belə də oldu. Bu mənada, təsadüfi deyildir ki, 1992-ci il noyabrın 21-də Naxçıvanda yaradılan Yeni Azərbaycan Partiyasının əsas ideoloji xətti də məhz milli birlik və həmrəylik, Azərbaycançılıq ideologiyası üzərində bərqərar edildi.

Naxçıvanda atılan tarixi addımlar uçurumun kənarında dayanan ölkəmizin ictimai-siyasi, iqtisadi-mədəni həyatında dönüş nöqtəsinə çevrilməklə xalqımızı əbədi nicat yoluna çıxardı. 1993-cü il 15 iyunda milli həmrəylik Milli Qurtuluşa yol açdı, intibaha rəvac verdi, xalqın təkidli tələbi ilə Ümummilli Liderimiz Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə gəldi və bundan sonra Azərbaycan diasporunun, lobbisinin formalaşdırılması istiqamətində ardıcıl, məqsədyönlü işlər aparıldı. Dünya azərbaycanlılarının təşkilatlanması və ümummilli ideyalar ətrafında birləşdirilməsi yolunda həyata keçirilən mühüm tədbirlərdən biri görkəmli dövlət xadiminin “Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında” 2001-ci il 23 may tarixli Sərəncamına uyğun olaraq həmin ilin 9-10 noyabrında Bakıda təşkil edilən qurultay oldu. Bu qurultay milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvəsi olmaqla yanaşı, müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların Vətənlə əlaqələrinin möhkəmləndirilməsi, eyni zamanda diaspor quruculuğunun təkmilləşdirilməsi işinə öz böyük töhfəsini verdi. Ümummilli Lider həmin qurultayda çıxışı zamanı dünya azərbaycanlılarının həmrəyliyini vacib vəzifə kimi önə çəkərək bunun üçün zəruri istiqamətləri diqqətə çatdırdı. Məhz bu mühüm tədbirdən sonra diaspor təşkilatlarının fəaliyyətində canlanma yarandı, dünya azərbaycanlılarını birləşdirən təşkilatlar daha aktiv fəaliyyət göstərməyə başladılar.

### *Tarixi Zəfərə, Zəfər Qurultayına...*

1993-cü ildə xalqımızı Milli Qurtuluşa, ölkəmizi müstəqillik yoluna çıxaran Azərbaycançılıq ideologiyası, milli həmrəylik ideyası 2003-cü ildən sonra beynəlxalq əlaqələr sistemində daha böyük hədəflər uğrunda mübarizəyə mayak oldu. Dövlət başçısı cənab İlham Əliyevin bu sahədə gördüyü işlər dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın Vətənə bağlılıqlarının artırılmasına mühüm töhfələr verdi. Eyni zamanda keçirilən qurultaylar ölkədən kənarda yaşayan soydaşlarımızın Azərbaycanla əlaqələrində mühüm rol oynadı. Prezident cənab İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi ilə diaspor quruculuğu işi yeni inkişaf mərhələsinə qədəm qoydu. Ölkə başçısının 2008-ci il noyabrın 19-da imzaladığı Fərmanla isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı, dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edildi. Bundan 3 il sonra – 2011-ci il iyulun 5-də Dünya Azərbaycanlılarının III, 2016-cı il iyunun 3-4-də isə IV qurultayları keçirildi. Bu qurultaylarda dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkələrdə yaşayan azərbaycanlı elm, ictimai və mədəniyyət xadimləri, sahibkarlar iştirak etdilər. Qurultaylar düşmən təxribatlarının qarşısının alınması istiqamətində mühüm rol oynayaraq dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların birlik və həmrəyliyinin təntənəsinə çevrildi...

Ölkəmiz Azərbaycançılıq və milli həmrəylik ideologiyasının ən böyük təntənəsini isə 2020-ci ildə yaşadı. Sentyabrın 27-dən etibarən dünyanın müxtəlif yerlərində yaşayan böyükdən-kiçiyə hər bir azərbaycanlının ürəyi anbaan Vətənimizlə, haqq, ədalət savaşına çıxan oğullarla döyündü. 44 gün davam edən Zəfər yürüşümüz xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının dəstəyindən də güc alaraq xalq-ordu-lider həmrəyliyi sayəsində Böyük Qələbə, Tarixi Zəfərlə yekunlaşdı. II Qarabağ müharibəsində qazandığımız Zəfər milli dövlətçilik salnaməmizdə ona görə müstəsna əhəmiyyətə malikdir ki, bu Böyük Qələbə yeni möhtəşəm tarixi günlərimizin yazılmasına, yeni qələbələrə vəsilə olur, qürurun ardınca qürur gətirir. Bu baxımdan 2022-ci il aprelin 22-də Zəfərimizin simvolu sayılan Şuşada Dünya Azərbaycanlılarının V Qurultayının keçirilməsi də dünyanın ən müxtəlif məkanlarında yaşayan həmvətənlərimizə fəxarət hissi yaşatmaqla illərlə aparılan təbliğat işlərinin, təşviqat kampaniyalarının hədər getmədiyini göstərdi. Bu möhtəşəm tədbir tarixə dünya azərbaycanlılarının Zəfər Qurultayı kimi yazıldı. Ölkə başçısı cənab İlham Əliyevin həmin qurultaydakı çıxışında dediyi kimi: ***“Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər Qurultayıdır... Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir – hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün...”*** Milli birliyimizin ən mühüm nailiyyətlərindən biri də Böyük Qələbəni mükəmməl şəkildə tamamlayan, ötən il sentyabrın 19-20-də reallaşdırılan lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyümüzün, dövlət suverenliyimizin tam bərpa olunmasıdır...

### *Milli həmrəylikdən qlobal həmrəyliyə*

Bu gün dünya miqyasında milli həmrəylik modeli ortaya qoyan Azərbaycan həm də xalqlar, dinlər, ölkələrarası sülhə, dialoqa körpü salmaqla qlobal həmrəyliyə layiqli töhfələr verir. Ölkəmiz Qoşulmama Hərəkatına dördillik uğurlu sədrliyi dövründə bunu bariz şəkildə göstərməyə nail oldu. Bildiyimiz kimi, BMT-dən sonra ikinci ən böyük təsisat sayılan Qoşulmama Hərəkatı fərqli etnik, dini, mədəni köklərə, siyasi quruluşlara malik və bəzən, hətta bir-biri ilə kəskin münasibətdə olan 120 dövlətdən ibarətdir. Bu baxımdan fərqli və mürəkkəb coğrafiya üzərindən birləşdirici, effektiv və nəticəyönümlü sədrlik missiyasını icra etmək məhz Prezident cənab İlham Əliyevin, Azərbaycan dövlətinin əsl tarixi-siyasi uğurudur. Xüsusilə də 2019-2020-ci illərdə dünyada tüğyan edən koronavirusla mübarizəyə dair birgə fəaliyyətlə bağlı Azərbaycanın atdığı qətiyyətli addımlar beynəlxalq səviyyədə yüksək qiymətləndirildi. Belə ki, 2020-ci ildə baş tutan Qoşulmama Hərəkatının Zirvə görüşündə Prezident cənab İlham Əliyev BMT Baş Assambleyasının liderlər səviyyəsində xüsusi sessiyasının çağırılmasını təklif etdi. Bu təklif BMT-yə üzv dövlətlər arasında böyük dəstək qazandı. Pandemiya zamanı beynəlxalq həmrəyliyin artırılmasına töhfə kimi “peyvənd millətçiliyi”nə qarşı 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında və BMT Baş Assambleyasında iki qətnamənin qəbuluna nail olunması mühüm əhəmiyyətə malik idi. Daim haqlının yanında olan, kiçik ada dövlətlərinin hüquqlarını müdafiə edən ölkə başçımız bu barədə deyib: ***“Biz bəzi varlı ölkələrin həyata keçirdiyi “peyvənd millətçiliyi”ni xüsusilə pandemiya ilə mübarizədə ciddi maneə kimi qiymətləndirdik. Nəticədə, Qoşulmama Hərəkatı bütün ölkələrin peyvəndlərdən ədalətli və vahid şəkildə istifadəsini təmin etmək üçün 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında və BMT Baş Assambleyasında qəbul edilmiş iki qətnamənin təşəbbüskarı oldu. Qoşulmama Hərəkatının pandemiya ilə mübarizə üçün qlobal səylərin səfərbər edilməsində liderliyi Hərəkatın nüfuzunu və məsuliyyətini bir daha nümayiş etdirdi”.***

Ümumiyyətlə, Azərbaycan istənilən beynəlxalq təşkilatın tribunasından, istənilən platformadan dünya ölkələrini sağlam, etibarlı gələcək naminə həmrəy olmağa səsləyir, birgə fəaliyyətə çağırış edir. Həm 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi mühüm təşəbbüsləri irəli sürərək, həm də BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum keçirməklə, eyni zamanda ölkəmizdə yaşayan xalqlara məxsus bayramların geniş qeyd edilməsinə şərait yaratmaqla, tarixi günlərdə birgəlik nümayiş etdirməklə, tolerantlıq mühiti formalaşdırmaqla milli həmrəylik prinsiplərini ən gözəl formada ortaya qoyur. 2024-cü ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını (COP29) yüksək səviyyədə keçirməklə, xüsusilə kiçik ada dövlətlərinin mənafeyinə uyğun mühüm tarixi qərarların qəbuluna nail olmaqla Azərbaycan həm də iqlim diplomatiyası sahəsində əsl dönüş, əsl həmrəylik nümunəsi yaratdı...

Həmrəyliyimizin ən bariz göstərici bir neçə ildir, Şuşada keçirilən “Xarıbülbül” Musiqi Festivalında, qurultayda, konfranslarda, əzəli torpaqlarımızda ucalan Qarabağ şikəstəsində, Xankəndidəki Qarabağ Universitetində, tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin, elm, təhsil ənənələrinin bərpasındadır. Bu ümumbəşəri ideya Qərbi Azərbaycana qayıdış missiyasında, Xocalıda eşidilən toy sədalarında, Zəngilandan gələn körpə səsində, Laçının qoynundan süzülən Həkərinin zümzüməsində, Vaqif Poeziya Günlərində, Xurşidbanu Natəvanın incə ruhlu misralarında, Üzeyirin ölməz sənətində, Bülbülün təkrarsız nəğməsindədir. Birliyimizin rəmzidir daim başımız üzərində dalğalanan üçrəngli bayrağımız, həmrəylik ölkəmizin əldə etdiyi siyasi, iqtisadi qələbələrdə, elmdə, təhsildə, idmanda qazanılan nailiyyətlərdə işıq saçır, nurlandırır gələcəyimizi. Milli Həmrəylik bayramımızın sədalarını Zəngəzur dəhlizindən keçməklə Naxçıvandan-Zəngilana gedən qatarda, avtomobildə eşitmək diləyi ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günümüz mübarək olsun!

✍ **Nail ƏSGƏROV**

# Ədalətə, güclü dövlətçiliyə əsaslanan uğurlu xarici siyasət



Ölkəmizin yerləşdiyi mürəkkəb geostrateji mövqeyi, sahib olduğu təbii sərvətləri və tarixən qarşılaşdığı ədalətsizliklərə qarşı aparılmış mübarizə dövlət müstəqilliyimiz illərində həyata keçirilən xarici siyasətin əsas konturlarını müəyyən edib və bu gün Azərbaycanın dünya arenasında qazandığı güc və dəstək də məhz bu istiqamətdə həyata keçirilən gərgin işlərin bəhrəsi kimi dəyərləndirilməkdədir. Müstəqil dövlətimizin memarı Ulu Öndər Heydər Əliyevin xarici siyasət sahəsində uzaqgörən fəaliyyətinin nəticəsində möhkəm təməl qazanmış Azərbaycan diplomatiyası dövlət başçımız Prezident cənab İlham Əliyev tərəfindən də mükəmməl şəkildə davam etdiriləərk ölkəmizin dostlarının sayının artırılması, dost olmayanların təsirlərinin məhdudlaşdırılması istiqamətində mühüm uğurlar qazanmışdır. Yola salmaqda olduğumuz 2024-cü il də Azərbaycan dövlətinin xarici siyasət sahəsində qazandığı uğurlar baxımından yaddaqalan oldu.

Hazırda dövlət başçımızın istər qardaş, istər qonşu, istərsə də böyük dövlətlərlə apardığı xarici siyasət kursunun əsas determinantları dörd il əvvəl ölkəmizin Qarabağın düşmən işğalından azad olunması ilə qazandığı böyük Qələbənin möhkəmləndirilməsi, məğlub Ermənistanla sülh müqaviləsinin bağlanılması ilə bütün Cənubi Qafqazda yeni sabit həyatın başlanmasını təmin etməkdir. Yola salmaqda olduğumuz ilin əvvəlində, 10 yanvar tarixdə yerli televiziya kanallarına müsahibə verən dövlət başçımız digər sahələrlə yanaşı, ölkəmizin xarici siyasət sahəsində də qazandığı uğurlara toxunaraq 2019-cu ildən Azərbaycanın Qoşulmama Hərəkatına 4 il ərzində sədrliyi dövründə qazandığı böyük təcrübənin əhəmiyyətini qeyd etmiş, bu təşkilatın nüfuzunun yüksəlməsi naminə görülən işlərdən, xüsusən COVID-19 pandemiyası dövründə vaksin milliyyətçiliyinə qarşı uğurlu mübarizəni xatırlatmışdır. 7 fevral tarixdə ölkəmizdə uğurla keçirilmiş növbədənkənar prezident seçkilərində böyük uğur qazanaraq yenidən xalqın etimadına layiq görülən dövlət başçımız 14 fevral 2024-cü il tarixdəki andiçmə mərasimində isə bundan sonrakı dövrdə Azərbaycanın yerinin Türk dünyası ailəsi olacağını bəyan etməklə, əslində, xarici siyasətimizin əsas istiqamətlərini də bəyan etdi.

Ölkəmizin yerləşdiyi mürəkkəb coğrafiya, böyük dövlətlərin maraqlarının kəsişdiyi Cənubi Qafqaz həmişə münaqişə və toqquşmalar meydanı olmuşdur. Enerji və tranzit potensialı ilə bu maraqların getdikcə daha da kəskinləşdiyi müasir dövrdə Azərbaycanın suverenliyinin qorunması üçün regiona maraqgöstərən böyük dövlətlərin, xüsusən uzun illərdən bəri ikili standartlar yürüdərək ölkəmiz əleyhinə gizli və açıq şəkildə siyasət aparan ölkələrin yırtıcı istəklərini gözündə qoyacaq xarici siyasət aparılması, bu mənada, dərin analitik təhlil və uzunvədəli strateji düşüncə tələb edən işdir. Ölkəmizin daxili iqtisadi və sosial siyasət məsələləri, həmçinin Qarabağın yenidən inşası kimi təxirəsalınmaz vəzifələr fonunda bütün bunların öhdəsindən gəlməyi bacaran dövlət başçımız cənab İlham Əliyev mürəkkəb konyunktur dalğalanmaların çox sıx müşahidə olunduğu xarici siyasət məsələlərində hər kəsə master dərsi keçə biləcək bir üslubla bu il də Azərbaycanın maraqlarını ən yüksək səviyyədə qorumağı bacardı. Belə dalğalanmalar isə yola saldığımız bu il daha da çox olub, ölkəmizi və yaxın regionumuzu uzaqdan və yaxından maraqlandıran Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərq qarşıdurması, Çin-ABŞ, İran-Pakistan, İran-İsrail arasında yaşanan gərginliklər, Avropa İttifaqının müxtəlif institutlarının ölkəmizə qarşı ədalətsiz ikili standartlar çərçivəsindəki yanaşmaları, həmçinin qonşu Gürcüstandakı daxili çaxnaşmalarla yadda qaldı. Bütün bunlarla paralel olaraq revanşist Ermənistanı yenidən silahlandıraraq müharibəyə təhrik edən Fransa, Hindistan və Yunanıstan üçlüsünün xəyallarını da puç edəcək xarici siyasət kursunun davam etdirilməsi bu il dövlət başçımızın iş masası üzərində onu gözləyən mühüm vəzifələrdən olmuşdur.

2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmuş və Azərbaycan keçmiş SSRİ məkanında ilk ölkə olaraq COP29-a ev sahibliyi etmək kimi mühüm missiyanı öz üzərinə götürmüşdür. Bu mənada, Cənubi Avropadakı enerji tərəfdaşlarımız, həmçinin "yaşıl enerji"yə keçid sahəsində ölkəmizlə sıx əlaqələri olan ölkələrlə aparılan işlər belə mühüm əhəmiyyətli tədbirin Azərbaycana həvalə edilməsinin təsadüfi olmadığını göstərmişdir. Bu barədə aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda Prezident cənab İlham Əliyev COP29-u beynəlxalq ictimaiyyətin Azərbaycana olan böyük hörmət və dəstəyinin təzahürü kimi qiymətləndirmişdir. COP29-un Azərbaycan üçün fürsət olacağını diqqətə çatdıran dövlət başçımız bizim dünyaya söyləyəcəyimiz çoxlu məsələlər olduğunu bildirmişdir. Bu baxımdan ənənəvi və alternativ enerji resurslarından istifadə məsələlərində beynəlxalq dəstəyin daha çox əldə olunması üçün müxtəlif platformalarda aparılan bütün işlər yola saldığımız ilin uğurları arasındadır.

Şimal qonşumuz Rusiya ilə münasibətlərin normallaşdırılması və bundan faydalanmaq ötən dövrdə dövlət başçımızın siyasətində mühüm yer tutub. 2024-cü ildə Rusiya dövlət başçısı ilə Rusiyada və Bakıda keçirilmiş yüksəksəviyyəli görüşlərdə iki dövlət arasında strateji əlaqələrin daha da dərinləşdirilməsi və regional təhlükəsizlik məsələlərində qarşılıqlı etimadın əldə olunması mühüm uğurlardandır. Bu xüsusda ötən il tam suverenliyini bərpa etmiş ölkəmizin Qarabağ regionundan Rusiya sülhməramlılarının çıxarılmasını da son iki yüz ilin ən yaddaqalan hadisəsi kimi dəyərləndirmək mümkündür.

Qarabağın azad olunmasından sonra dost olmayan ölkələrin Azərbaycana qarşı çıxışlarının neytrallaşdırılması baxımından qardaş türkdilli dövlətlərin ölkəmizə verdiyi dəstək əvəzsizdir. Qarabağda qardaş ölkələrin tikdiyi məktəblər və mədəniyyət müəssisələri mənəvi dəstək nümunəsi olaraq Azərbaycanın tək olmadığını dünyaya nümayiş etdirməklə mühüm siyasi əhəmiyyət də daşıyır. Bu mənada, qardaş türkdilli ölkələrin dövlət başçıları ilə yanaşı, dost Belarusun dövlət başçısının da Şuşaya səfəri və dost Macarıstanın Türk Dövlətləri Təşkilatında müntəzəm iştirakı bilavasitə Azərbaycanın xarici siyasətinin uğuru kimi dünyada qəbul olunur. Orta Asiyanın türkdilli ölkələri, eləcə də Tacikistanla qurulan sıx əlaqələrin hazırda ən yüksək səviyyəyə çatması, qardaş Türkiyə ilə hər sahədə davam etdirilən yüksəksəviyyəli siyasi təmaslar ölkəmizin bu böyük ailədəki yerindən və dövlət başçımızın siyasi müdrikliyindən xəbər verir.

Cənub qonşumuz İranla yaradılmış səmərəli dialoqun qorunub saxlanılması və daha da inkişaf etdirilməsi müstəqil Azərbaycan Respublikasının prioritetləri və mehriban qonşuluq prinsiplərinin mühüm məsələlərindəndir. Bu mənada, bu ilin may ayında Araz çayı sahilində, İranla sərhəddə "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasimində dövlət başçımızın İslam dövlətinin başçısı ilə birgə iştirak etməsi və İran-Azərbaycan dostluğu, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında, ECO-da və BMT-də bir-birimizə verilən dəstək barədə ötürülən qarşılıqlı mesajlar tarixi qonşuluq əlaqələrmizin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətli hadisə olmuşdur. Bu görüşdə təkcə ölkələrimiz üçün deyil, daha geniş coğrafiya üçün böyük əhəmiyyət daşıyan Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafı və Ağbənd istiqamətində tikilən yeni avtomobil körpüsünün təkcə Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirən körpü deyil, həm beynəlxalq nəqliyyat dəhlizinin bir parçası, həm də Şimal-Cənub, eyni zamanda Şərq-Qərb Nəqliyyat dəhlizlərinin bir hissəsi olacağı dövlət başçımız tərəfindən vurğulanmışdır.

Bu ilin iyulunda dövlət başçımızın qardaş Pakistana səfəri, buradakı təntənəli qarşılanma və hərtərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsi baxımından əldə olunan razılaşmalar da xarici siyasətimizin uğurları arasındadır.

2020-ci il 10 noyabr Bəyannaməsinə imza atan, ancaq Cənubi Qafqazda dayanıqlı sülh yaradılmasına həmişə əngəl yaratmaq istəyən Ermənistanın ənənəvi destruktiv xarici siyasətinə qarşı Azərbaycanın həyata keçirdiyi xarici siyasət xətti bu il də öz bəhrəsini vermişdir. Bu ilin may ayında Qazaxın 4 kəndinin geri alınması ilə nəticələnən danışıqlar, həmçinin iki dövlət arasında sərhəd delimitasiya məsələlərinin həlli üzrə müzakirələr, oktyabrın 24-də Tatarıstanın paytaxtı Kazanda keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasındakı vasitəçisiz görüş, burada Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə verilən təlimatlar, hər şeydən əvvəl, qalib ölkə olan Azərbaycanın, onun dövlət başçısının xarici siyasətdəki uğurudur.

Və COP29! Şübhəsiz, BMT səviyyəli bu böyük tədbirin Azərbaycanda keçirilməsi və 80-i lider olmaqla, 196 ölkədən 76 min nəfər iştirakçının sammitə qatılması, ilk növbədə, Azərbaycanın uğurudur. Tədbirdəki yüksəksəviyyəli təşkilatçılıqla seçilən Azərbaycan dövlət başçısının istər Liderlər sammitinin açılış mərasimində, istər inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində və istərsə də dəvəti qəbul edib ölkəmizə təşrif buyurmuş liderlərlə ikili təmaslarda verdiyi mesajlar dünyanın gündəmində birinci səhifədə işıqlandırılmışdır. Dünya, Avropa İttifaqı rəsmiləri və eləcə də BMT-nin iqlim məsələləri kimi önəmli konfransına ucuz şəxsi ambisiyalarına görə qatılmayan Fransa kimi dövlətlər gördülər ki, Azərbaycanın dövlət başçısı həmişə sözünün arxasındadır. Lazım gəldikdə belə ölkələr öz kolonialist keçmişlərinə görə birbaşa üzlərinə deyilən sözləri BMT Baş Katibinin də alqışladığını görə bilərlər. Bu çıxışlar dövlət başçımızın bəzi cılız Avropa və Amerika siyasətçilərinə verdiyi unudulmayacaq xarici siyasət dərsi idi.

2024-cü ildə dövlət başçımızın Türkiyə, Misir, İtaliyaya səfərləri zamanı, həmçinin Astanada Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində Çin lideri ilə görüşləri Avropa İttifaqı rəsmiləri ilə təmasları da bu ilin diplomatik uğurları arasında oldu.

Dünya sürətlə dəyişir və dünya siyasəti də baş verən hər cür konyunktur tərəddüdlər və beynəlxalq hədəflərlə zaman-zaman korreksiya olunur. Ancaq zamanın sınağından çıxmış və həmişə özünü ən yüksək səviyyədə doğrultmuş bir həqiqət vardır ki, bu, ölkəsinin, xalqının tam suverenlik içində, rahat, sülh şəraitində yaşaması üçün həyata keçirilən siyasətin daim qələbə çalması, dünyanı ədalətə qovuşdurmasıdır. Onillər boyu bütöv Azərbaycanın inkişafı üçün yeridilən uğurlu xarici siyasət xəttinin də uğuru bu ədalətə, güclü dövlətçiliyimizə dayanır.

Əli CABBAROV



Bu gün dünyanın mütərəqqi düşüncəli, sülhsevər siyasət xadimlərinin Azərbaycan və ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev haqqındakı fikirlərini çox yığcam və konkret şəkildə belə ümumiləşdirmək olar: *"İllərdir ki, Azərbaycan dünya miqyasında yeni güc mərkəzinə çevrilib və irəliyə doğru inamlı addımlar atır. Qazanılan uğurlar artdıqca ölkə vətəndaşlarının gün-güzəranı, maddi rifah halı daha da yaxşılaşır. Azərbaycan Prezidentinin böyük rolu və hərtərəfli xidmətləri nəticəsində ölkəmiz beynəlxalq arenada özünü etibarlı tərəfdaş kimi təsdiq etdirib. Əldə olunan digər bir uğur isə Azərbaycanın regional və beynəlxalq münasibətlərdə də nüfuzunun getdikcə artmasıdır. Uğurla həyata keçirilərək dinamik xarakter olan sosial-iqtisadi siyasət, genişmiqyaslı islahatlar və böyük quruculuq işləri geniş coğrafiyası ilə diqqəti çəkir. Bu da iqtisadi tərəqqinin təmin edilməsinə müsbət təsir göstərir.*

*Minlərlə azərbaycanlının 30 illik Qarabağ həsrətinə son qoyulması isə ölkə başçısının sərkərdəlik bacarığının və hər bir azərbaycanlının yurd, Vətən sevgisinin ifadəsinə çevrilib. Bununla Prezident dünyaya separatizmin kökünü kəsməyin yeni modelini nümayiş etdirib. 4 ildir ki, həmin ünvanlar böyük tikinti meydançası timsalındadır; bir qərinəyə yaxın bir müddətdə doğma yurd yerindən didərgin düşmüş soydaşlarımız öz torpaqlarına qayıdır, Qarabağ öz xoşbəxt günlərini yaşayır".*

# Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır

Təbii ki, bunlar son 20 ildə ölkə başçısının gördüyü işlərin çox cüzi hissəsidir. Həyatın bütün sahələrində nail olunmuş yüksək nəticələr, qazanılmış uğurlar cənab İlham Əliyevin prioritet vəzifəyə çevirdiyi vəzifələrin yerinə yetirilməsi istiqamətində görünən reallıqlardır. Bu reallıqları, təbii ki, söhbətimizin əvvəlində qeyd etdiyim kimi bütün dünya görür. Bəzilərinin isə qara eynək arxasından verdiyi qiymət, daha doğrusu, reallıqları necə dəyərləndirməsi onların şəxsi düşüncələrinin ifadəsidir. Fikrimizcə, yazılmış tarixə ən düzgün qiyməti zaman özü verir. Zaman isə elə bir prosesdir ki, hər şeyi dəqiq qiymətləndirir.

***

Görülən işlərin təməlində bir amilin dayanması şübhəsizdir: Azərbaycan Prezidenti öz fəaliyyətində Ulu Öndərin müəyyənləşdirdiyi siyasəti rəhbər tutur. İllərdir ki, bu siyasət ölkəmizi daha böyük müvəffəqiyyətlər qazanmağa istiqamətləndirir. Bu kontekstdə yaşadığımız müasir dövrün tələblərini nəzərə almaq isə ölkə başçısının siyasət aləmindəki istedad və bacarığının ifadəsidir. Çünki daim inkişafda olan çağdaş dünya yeni reallıqları qəbul etməyə bilməz və hər bir dövlət öz ambisiyasına uyğun siyasətin sahibidir. Və belə bir situasiyada söz deməyin və iş görməyin problemlərini təsəvvür etmək çətin deyil. Məhz bunun öhdəsindən gəlmək bacarığına sahib olan Prezidentin hər bir addımı təqdir olunur.

Bu sətirləri qələmə alarkən Xalq şairi Nəriman Həsənzadənin hələ 1969-cu ildə Ulu Öndərlə ilk görüşdə oxuduğu şeirini xatırladım:

*Gəlin, addımlayaq*
*sıx cərgələrdə,*
*Gəlin, qabaqlayaq dövrü,*
*zamanı.*
*Daim alqışlayaq yalnız zəfərlə*
*Ana dediyimiz Azərbaycanı.*

O gün, o arzuladığımız gün illərdir ki, gəlib və yaşayırıq uzun müddət gözlədiklərimizi: dövrü, zamanı qabaqlamaqla, sıx cərgələrdə addımlayaraq anamız Azərbaycanı hər gün qazandığı zəfərlə alqışlayırıq. Bundan sonra da alqışlayacağıq. Çünki biz qalib olmağı bacarırıq. Qalib olmağı isə bizə Ulu Öndər öyrədib; onun siyasətinə inanmağımızı, əməl etməyimizi öyrədib. Bu gün Onun siyasəti bizim iş prinsipimizdir – istər ən yüksək postda oturanların, istərsə ən kiçik belə xidmət sahəsində çalışanların...

Cənab Prezidentin 20 illik fəaliyyətinin hər bir detalında Ulu Öndərin vurduğu möhürü görürük. Və elə bu gün gündəmdə ən vacib yer tutan "Qərbi Azərbaycana qayıdış" konsepsiyası istiqamətində həyata keçirilən silsilə tədbirlər görkəmli dövlət xadiminin XII çağırış Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də keçirilən beşinci sessiyasında dediyi sözlərini yada salır: ***"Təklif edirəm ki, Dağlıq Qarabağ məsələsi yox, bütün 1920-ci ildən Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın, torpaqların hansı qərarlarla, kim tərəfindən verilməsi müəyyən olunsun... biz torpaqlarımızı özümüzə qaytarmalıyıq, orada hakimiyyətimizi bərpa etməliyik, biz respublikamızın suverenliyini təmin etməliyik..."***

Yeri gəlmişkən, onu xüsusi xatırlatmağa ehtiyac duyuram ki, 1988-ci ildən başlayaraq Ulu Öndər dünyasını dəyişənə qədər iştirak etdiyi bütün tədbirlərdə – fərqi yoxdur, istər ölkəmizdə, istər başqa dövlətlərdə – bu taleyüklü məsələ ilə bağlı real tariximiz, həmçinin təhrif olunmuş tariximiz, bu fonda ermənilərin öz havadarları ilə torpaqlarımıza göz dikərək mərhələ-mərhələ bəzi bölgələrimizi işğal etdikləri, orada məskunlaşdıqları barədə, dünyanın susduğu bu ədalətsizliklərə son qoyulması üçün öz sözünü deyir, ən yüksək beynəlxalq tribunalardan Azərbaycan həqiqətlərini dünyaya çatdırırdı.

***"Dağlıq Qarabağ problemi ancaq Azərbaycanın ərazi bütövlüyü daxilində həll edilməlidir"***, – deyən cənab İlham Əliyev 20 ildir ki, bu yolu böyük ehtiram və sədaqətlə davam etdirir. Heç uzağa getməyək. 4 il bundan əvvələ qədər ölkə başçısı ata vəsiyyətini yerinə yetirmək üçün məlum Qarabağ probleminin həllinə sülh yolu ilə çalışırdısa, bu yolda bütün mümkün variantları ortaya qoyurdusa, Ermənistan və onun havadarları buna söz kimi baxırdılarsa, dövlət başçısı sübut etdi ki, bizim sözümüz imzamızdır: ***"... siyasət hansısa konkret nəticə ilə yekunlaşmalıdır... Əsl siyasət konkret, real iş görməkdən ibarətdir".***

...Bu gün hər bir azərbaycanlı ölkədə gedən ictimai-siyasi, mədəni, iqtisadi prosesləri izləmək imkanına malikdir və bu imkanlardan bəhrələnir. Yəni dünən görülən işin təməlinin ondan əvvəl, bu gün görülən işin təməlinin dünən qoyulması günün gerçəklikləridir. Elə, bu mənada, dünənə (keçmişə) baxaraq hər birimizin, ölkəmizin və dövlətimizin yaşadıqlarını görürük. Görürük ki, hər atılan addım digərini gətirir, dünənlə bu gün arasında vəhdət yaradır; bu isə sabahın təməlinin qoyulmasıdır. Sirr deyil ki, Azərbaycanın bugünkü inkişafının təməli 1969-cu ildə qoyulub. Yəni o vaxtadək ucqar əyalət timsalında olan ölkəmiz on beş müttəfiq respublika içərisində ən son yerlərdən birində qərarlaşmışdı. Ölkənin qızıla bərabər bütün yeraltı və yerüstü sərvətləri Moskvaya daşınır, ovaxtkı rəhbərlər öz ambisiyaları ilə yaşayır, rüşvətxorluq isə baş alıb gedirdi. Və həmin il Azərbaycana rəhbər təyin olunan Ulu Öndər hər şeyi sıfırdan başlamalı oldu. İdarəetmə bacarığı, insanlarla işləmək qabiliyyəti, keçmişə ehtiram, sabaha cavabdehlik hissi ilə yaşayan dahi şəxsiyyət qısa müddət ərzində ölkəmizi inkişaf yoluna çıxarmağa nail oldu. Dünyanın siyasi xəritəsində Azərbaycan adı görünməyə başladı. Bu inkişaf və tərəqqiyə dodaq büzənlər və inanmayanlar da az deyildi. Ancaq Heydər Əliyev qətiyyəti, Heydər Əliyev prinsipiallığı, qarşıya qoyulmuş məqsədə çatmaq inamı köməyə gəldi. 1982-ci ilədək həmin dövr ölkəmizin ən çiçəklənən, iqtisadi cəhətdən, qüdrətlənən dövrü oldu. SSRİ adlı nəhəng bir imperiyanın tərkibində o səviyyəyə çatmaq heç də asan məsələ deyildi. Bəllidir ki, bu çətinliyi asan edən Heydər Əliyev fenomeni, şəxsiyyəti, xarakteri idi. Elə o vaxt Ulu Öndər haqqında deyilənlərə ötəri belə baxsaq, gəldiyimiz qənaətin reallığını görərik. Böyük Atatürk deyirdi: *"Ən böyük şəxsiyyət özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda canını verən insanlardır".* Tarix isə bu deyimin doğru olduğunu gördü. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Azərbaycanda bütün işlərin təməlində Heydər Əliyev amili, Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik. Öz milli liderimizin vəsiyyətinə sadiqik...***

***Heydər Əliyev bütün dövrlərdə bütün sınaqlardan şərəflə çıxmışdır. Bütün mübarizələrdə – istər daxili, istər beynəlxalq müstəvidə, bütün dövrlərdə doğma Vətənini müdafiə etmişdir və qələbə qazanmışdır. Əgər biz tarixə bir daha nəzər salsaq, görərik ki, Heydər Əliyevsiz dövrlər Azərbaycan üçün böyük fəlakətlərlə nəticələndi. Yaşadığımız indiki dövr Azərbaycan üçün uğurludur və bunun da tək səbəbi var. Çünki bu gün Heydər Əliyev siyasəti yaşayır, onun ideyaları yaşayır, onun qurduğu müstəqil dövlət yaşayır və güclənir".***

Ölkə başçısının bu qənaəti yaxın keçmişimizin, daha dəqiq desək, Heydər Əliyevsiz Azərbaycanın yaşadığı dövrü tam gerçəkliyi ilə əks etdirir. O dövrü yaşayan biri kimi həmin acınacaqlı illəri yaxşı xatırlayıram. Təhsil, səhiyyə, mədəniyyət, rabitə və digər sahələr bərbad vəziyyətdə, istehsal müəssisələri – zavod və fabriklər də eləcə. İnsanlar ən adi tələbat məhsullarını əldə etmək üçün dəridən-qabıqdan çıxır, məhsuldar torpaq sahələri əkilməmiş qalırdı. Bunun da obyektiv səbəbləri var idi. Su, texnika, toxum çatışmazlığı baş alıb gedirdi. İnsanların bir çoxu dədə-baba yurd yerlərindən uzaqlaşır, bir tikə çörəkpulu qazanmaq üçün xarici ölkələrə üz tuturdular. Və məhz belə bir dövrdə Heydər Əliyev şəxsiyyətinə böyük ehtiyac özünü göstərməkdə idi. Azərbaycanlı olması ilə qürur duyan, Azərbaycanı özünə qibləgah sayan dahi öndərin ölkəmizə, bir gün sonra Naxçıvana qayıdışı insanların itmiş inamlarını özlərinə qaytardı. Bu qayıdış isə Azərbaycanın Azərbaycana qayıdışı oldu. Tarix yenidən yazılmağa başladı. Bu tarixin müəllifi isə Ulu Öndər idi. Sonralar Ümummilli Liderimiz deyəcəkdi: ***"Biz bütün bu çətinliklərdən keçdik, bütün bu maneələrin qarşısını aldıq, Azərbaycanın bütün düşmənlərinə layiqli cavablar verdik, ölkəmizin dövlət müstəqilliyini qoruduq, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdik və Azərbaycanın dövlət müstəqilliyini yaşadırıq və bundan sonra da yaşadacağıq... Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm".***

Və tarix də dahi rəhbərin öhdəsinə götürdüyü missiyanın yüksək səviyyədə yerinə yetirilməsini gördü. Bu gün qalib xalq və qalib dövlət kimi yaşamağımızın başlıca səbəbi Ulu Öndər yolunun uğurla davam etdirilməsidir. Görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi yola sədaqət, ehtiram bu gün ən yüksək səviyyədədir.

Ölkə başçısı cənab İlham Əliyevin bacarıqlı rəhbərlik səriştəsi bu yolun daimi olduğunu ortaya qoyub. Son 20 ilin hər bir səhifəsi bunun canlı sübutudur.

Azərbaycan Prezidenti cənab İlham Əliyev bu siyasəti belə xarakterizə edir: ***"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rifah halı, təhlükəsizliyi, yaşayışı dayanır. Hər bir dövlət və hər bir rəhbər məhz bu prinsiplə yaşamalıdır. Xalqa xidmət etmək, xalqın qayğıları ilə yaşamaq, xalqı narahat edən problemləri daim diqqət mərkəzində saxlamaq və onları həll etməsi lazımdır".***

Bu isə bu günümüzün reallığıdır.

**Muxtar MƏMMƏDOV**

# Naxçıvanda əlilliyi müəyyən olunmuş şəxslərə avtomobil və səyyar kofe evləri təqdim edilib

Müharibə ilə əlaqədar əlilliyi müəyyən olunmuş və Çernobıl AES-də baş vermiş qəzanın nəticələrinin aradan qaldırılması zamanı xəsarət alan və əlilliyi müəyyən olunmuş 12 nəfərə avtomobil, həmçinin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlərin icrası məqsədilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi və hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi müəyyən olunmuş, eləcə də özünüməşğulluq proqramı üzrə aktivlərlə təmin olunmaq üçün müraciət edən şəxs olmaqla, 2 nəfərə səyyar kofe evi təqdim edilib.

Dekabrın 24-də avtomobillərin və səyyar kofe evlərinin təqdimatı olub.





Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli avtomobil təqdim olunan və məşğulluğu təmin olunan şəxslərlə görüşüb.

Səlahiyyətli nümayəndə qeyd edib ki, 2023-2024-cü illər xalqımız üçün əlamətdar hadisələrlə yadda qalır. Azərbaycanın bütün ərazilərində suverenliyimiz təmin olunub. Bu nailiyyətlərin əldə olunmasında müharibə iştirakçıları və qazilərin rolu, əməyi danılmazdır. Dövlətimiz hər zaman onların Vətən qarşısındakı fədakarlıqlarını yüksək qiymətləndirir, bu kateqoriyadan olan şəxslərin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər görülür.



Fuad Nəcəfli “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın uğurla icra olunduğunu, bu tədbirlər çərçivəsində əhalinin rifah halının yüksəldilməsi tədbirlərinin bundan sonra da davam etdiriləcəyini bildirib, hər kəsi qarşıdan gələn bayramlar münasibətilə təbrik edib.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli 12 nəfərə avtomobillərin açarlarını, məşğulluq proqramına cəlb edilmiş 2 nəfərə isə səyyar kofe evlərinin açarlarını və müqavilələrini təqdim edib.

Səlahiyyətli nümayəndə sonda təqdim olunan avtomobillərə və səyyar kofe evlərinə baxıb, avtomobil təqdim olunan və məşğulluğu təmin edilən şəxslərin hər birinə cansağlığı arzulayıb.

# Səlahiyyətli nümayəndə vətəndaşları qəbul edib



Dekabrın 23-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Culfa rayonunda sakinlərlə görüşüb.

Görüşdən əvvəl Ümummilli Lider Heydər Əliyevin Culfa şəhərində ucalan abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Sonra İcra Hakimiyyətinin inzibati binasında vətəndaş qəbulu keçirilib. 150 nəfərdən çox sakinin iştirak etdiyi görüşdə səlahiyyətli nümayəndə sakinlərlə, eləcə də şəhid ailələri və qazilərlə fərdi söhbət aparıb, onların problem və təkliflərini dinləyib.

Müraciətlərin hər birinin həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbirlərin görüləcəyi qeyd olunub.

# Naxçıvanda doğum günü dekabr ayında olan şəhidlərin xatirəsi anılıb

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi və “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin təşkilatçılığı ilə doğum günü dekabr ayında olan şəhidlərin anım tədbiri keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli əvvəlcə Heydər Əliyev Sarayının foyesində Birinci və İkinci Qarabağ müharibəsində Naxçıvanın şəhid olmuş qəhrəman övladlarının fotolarından hazırlanan guşəyə baxıb.

Dövlət və hökumət rəsmiləri, şəhid ailələri, qazilər, hərbçilər, kursantlar və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi anım tədbirində Ümummilli Lider Heydər Əliyevin, şəhidlərin və dekabrın 25-də baş vermiş təyyarə qəzasında həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhidlərin əziz xatirəsinə dərin hörmət və ehtiramını bildirib, dekabrın 25-də “Azərbaycan Hava Yolları” şirkətinə məxsus Bakı-Qroznı sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsini yad edib.

“Azərbaycan şəhid ailələrinə, qazilərə və müharibə iştirakçılarına hərtərəfli diqqət və qayğı göstərən nümunəvi ölkədir”, – deyən səlahiyyətli nümayəndə bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən şəhid ailələrinə, qazilərə və müharibə iştirakçılarına xüsusi diqqət və qayğı göstərilir. Naxçıvanda da şəhid ailələri, qazilər və veteranların sosial müdafiəsinə yönəlmiş tədbirlərin əhatə dairəsi ilbəil genişləndirilir. 2023-2024-cü illərdə Dəstək Fondunun xətti ilə müvafiq kateqoriyadan olan şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilib, 7 şəhid ailəsi və 19 qazi mənzillə, müharibə zamanı və hərbi xidmət vəzifələrini yerinə yetirərkən sağlamlığını itirən 34 şəxs avtomobillə təmin olunub.

Hazırda muxtar respublikada hər ay 509 şəhid ailəsi üzvünə Prezident təqaüdü, 181 qaziyə pensiya və 6178 veterana müavinət ödənilir. Ötən 2 il ərzində, ümumilikdə, Dəstək Fondu tərəfindən 744-ü şəhid ailəsi, 297-si müharibə əlili və 79-u müharibə veteranı olmaqla, 1120 nəfərə 1 milyon 533 manatdan artıq vəsait ödənilib. 2021-2022-ci illərdə Dəstək Fondu tərəfindən şəhid ailələri və qazilərə edilən ödənişlər bu göstəricilərlə müqayisədə 1004 nəfər və ya 1 milyon 199 min 499 manat





az olub.

Fuad Nəcəfli diqqətə çatdırıb ki, şəhid ailələri və qazilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması tədbirləri sırasında onların məşğulluq problemlərinin həlli də diqqət mərkəzindədir. Belə ki, 2024-cü ildə şəhid ailələrindən 12-si işlə, 8-i özünüməşğulluq proqramı üzrə aktivlə, qazilərdən 18-i işlə, 27-si özünüməşğulluq proqramı üzrə aktivlə, müharibə veteranlarından 52-si işlə, 23-ü isə özünüməşğulluq proqramı üzrə aktivlə təmin olunub.

Muxtar respublikada şəhid adlarının əbədiləşdirilməsinin qarşıda duran əsas vəzifələrdən olduğunu qeyd edən səlahiyyətli nümayəndə vurğulayıb ki, 2023-cü ildə Babək şəhərində Şəhidlər Memorial Abidə Kompleksi istifadəyə verilib. Hazırda Naxçıvan şəhərində, Şərur, Kəngərli, Sədərək, Şahbuz, Culfa və Ordubad rayonlarında bu istiqamətdə işlər aparılır. Naxçıvanda şəhid ailələri və qazilərin cəmiyyətə inteqrasiyası istiqamətində də silsilə tədbirlər həyata keçirilir. 20 aprel 2023-cü il tarixdə “Naxçıvan Qaziləri” İctimai Birliyi və 15 avqust 2023-cü il tarixdə “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyi yaradılıb, hər iki ictimai qurumun dövlət orqanları ilə qarşılıqlı əlaqəsi təmin edilib. Hazırda muxtar respublikada şəhid ailə üzvləri və qazilər seçkili orqanlarda təmsil olunur, müxtəlif idarə, müəssisə və təşkilatlarda çalışırlar. Bu ilin sentyabrında Ali Məclisə keçirilən seçkilərdə 1 şəhid anası, 1 şəhid qardaşı və 1 qazi yüksək seçici etimadı qazanaraq deputat seçilib. Eyni zamanda Naxçıvan Muxtar Respublikasının yerli və mərkəzi icra hakimiyyəti orqanlarında bu kateqoriyadan olan şəxslər işlə təmin olunub.

Fuad Nəcəfli “Şərq qapısı” qəzeti redaksiyası tərəfindən Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə nəşr olunmuş “100 ilin qəhrəmanları” ensiklopedik nəşrini şəhidlərin xatirəsinin və adlarının əbədiləşdirilməsi sahəsində görülən işlərə ən gözəl nümunə kimi dəyərləndirib.

Səlahiyyətli nümayəndə şəhid ailələri, qazilər və veteranlarla bağlı işlərin, həyata keçirilən birgə tədbir və layihələrin bundan sonra da davam etdiriləcəyini, şəhid adlarının hər zaman uca tutulacağını əminliklə ifadə edib, qəhrəman şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirib, şəhid ailələrini və qaziləri, müharibə iştirakçılarını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib.

Şəhid general-mayor, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun anası Səmayə Həşimova çıxışında Azərbaycan xalqının qəhrəman xalq olmasını qürur hissi ilə dilə gətirib. Qeyd edib ki, 30 illik həsrətə son qoyaraq torpaqlarımızı işğaldan azad edən Vətən övladlarının timsalında bir daha əmin olduq ki, bu xalq bir şəhid verib, min qəhrəman yetirir. Naxçıvanın tarixboyu qəhrəman övladlar yetişdirən bir diyar olduğunu qeyd edən Səmayə Həşimova tədbirin təşkilinə və dəvətə görə təşəkkür edib.

Anım tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, şəhid Emin Sadiqovun anası Gülşad Rüstəmova və şəhid Toğrul Məmmədovun qardaşı Üzeyir Məmmədov şəhid ailələri adından çıxış edərək bu il ərzində şəhidlərin doğum günü ilə bağlı keçirilən yekun tədbiri yüksək qiymətləndirib, göstərilən diqqət və qayğıya görə təşəkkür ediblər.

Sonra Naxçıvan Televiziyasının doğum günü dekabr ayında olan 31 şəhidimizlə bağlı hazırladığı videoçarx nümayiş etdirilib.

Tədbirin bədii hissəsində Azərbaycan Respublikasının Əməkdar artisti Fərqanə Qasımova şəhidlərimizə həsr olunmuş və vətənpərvərlik ruhunda mahnılar ifa edib, Naxçıvan Dövlət Universitetinin tələbələri və “Altai” teatrının kollektivi tərəfindən isə kompozisiya nümayiş olunub.



# Naxçıvanda şəhid və qazi övladlarına, həmçinin sosial qayğıya ehtiyacı olan uşaqlara bayram hədiyyələri təqdim olunub

Naxçıvan Dövlət Milli Dram Teatrında şəhid və qazi övladları, həmçinin sosial qayğıya ehtiyacı olan uşaqlarla bayram görüşü keçirilib.

Naxçıvan Dövlət Milli Dram Teatrının kollektivi Yazıçı Eluca Atalının qələmə aldığı “Odunçunun nağılı” əsəri əsasında hazırladığı tamaşanı təqdim edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli “yaşıl enerji”yə keçid, təbiətin mühafizəsi, ekoloji təmizliyə çağırış ideyalarını təşkil edən tamaşanı uşaqlarla birlikdə izləyib.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli çıxış edərək qeyd edib ki, müstəqilliyimizin ilk illərində Vətənimiz gözlənilməz bəlalarla üzləşib. Şəhid və qazilərimizin fədakarlıqları sayəsində yurdumuz bu bəlalardan xilas olub, torpaqlarımız işğaldan azad edilib. Qəhrəmanlarımızın övladları ilə qürur duyduğunu diqqətə çatdıran səlahiyyətli nümayəndə uşaqlara bayram təbriklərini və xoş arzularını çatdırıb.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev vurğulayıb ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının dəstəyi ilə muxtar respublikada yaşayan şəhid və qazi övladlarına, həmçinin sosial qayğıya ehtiyacı olan 300 nəfər uşağa yeni il hədiyyəsi nəzərdə tutulub. Şura sədri göstərilən xüsusi diqqət və qayğıya görə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyinə öz minnətdarlığını bildirib.

Sonra tədbirdə iştirak edən uşaqlar səhnəyə dəvət olunub, onlara bayram hədiyyələri verilib. Səlahiyyətli nümayəndə Fuad Nəcəfli və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev uşaqlara hədiyyələri təqdim ediblər.

## “Naxçıvan Muxtar Respublikası 100” adlı xalçanın təqdimatı keçirilib




Dekabrın 24-də Azərbaycan Milli Xalça Muzeyində Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi Azərbaycan tarixində həm dövlətçilik ənənələrinin, həm də milli kimliyimizin qürur mənbəyidir. 100 il əvvəl, 1924-cü ildə Naxçıvan Muxtar Respublikasının yaradılması ilə bu torpaqların hüquqi statusu təsbit edilib, Azərbaycanın ayrılmaz bir hissəsi kimi möhkəmləndirilib. Bu təkcə hüquqi deyil, eyni zamanda tarixi bir zəfər idi.

Bildirilib ki, bu gün Naxçıvanın əldə etdiyi nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində mümkün olub. Prezident cənab İlham Əliyev Ulu Öndərin siyasi xəttini uğurla davam etdirərək Naxçıvana xüsusi diqqət göstərir. Naxçıvanda həyata keçirilən infrastruktur layihələri, sənaye parklarının yaradılması, qəbul edilən Dövlət proqramları, beynəlxalq miqyasda Naxçıvanın tanıdılmasına böyük töhfələr verib.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın milli-mədəni irsimizin qorunması və dünyada tanıdılması sahəsində xidmətlərindən danışan Samir Seyidəhmədli qeyd edib ki, onun təşəbbüsü ilə Naxçıvanın mədəni irsi beynəlxalq tədbirlərdə təbliğ olunur, abidələrimiz qorunur və gələcək nəsillərə ötürülür.



Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxış edərək bildirib ki, Naxçıvanın tarixi rolunu vurğulamaqla yanaşı, onun zəngin mədəni irsini də xüsusi qeyd etməliyik. Bu irsin yaşadılması, qorunması və gələcək nəsillərə ötürülməsi sahəsində görülən işlər hər zaman diqqət mərkəzində olub. Bu gün təqdimatı keçirilən “Naxçıvan Muxtar Respublikası 100” xalçası da bu zəngin mədəniyyətin simvollarından biridir. Xalçanın eskizində qədim Naxçıvan xalça məktəbinə aid ənənəvi elementlər, memar Əcəminin Möminə xatın türbəsindəki ornamentləri və əzəmətli Haçadağın təsviri ustalıqla əks etdirilib.



Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın tarixi yaddaşında mühüm yer tutur. Naxçıvan təkcə coğrafi baxımdan deyil, həm də milli-mədəni irsin beşiyi kimi Azərbaycan xalqı üçün əvəzolunmaz əhəmiyyət daşıyır. Naxçıvanın 100 illik yubileyi çərçivəsində keçirilən bu kimi tədbirlər tariximizi, mədəniyyətimizi və ənənələrimizi gələcək nəsillərə ötürmək baxımından böyük əhəmiyyət kəsb edir.

Çıxışlardan sonra xalçanın toxunması ilə bağlı videoçarx nümayiş etdirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Kamil Əliyev adına Naxçıvan Dövlət Xalça Muzeyinin əməkdaşları tərəfindən Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyi münasibətilə toxunmuş xalçanın təqdimatı və ənənəyə uyğun kəsimi həyata keçirilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə toxunan xalçanın eskizinin müəllifi Naxçıvan Xalça Muzeyinin direktoru Ülviyyə Məmmədova, toxucuları isə muzeyin tərtibatçı rəssamları Gülsüm Kəngərli və Rübabə Əliyevadır.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının kollektivi və Azərbaycan Respublikasının Əməkdar artisti Nuriyyə Hüseynova konsert proqramı ilə çıxış ediblər.

Sonda muxtar respublikanın muzey fondlarına aid maddi mədəniyyət nümunələrindən ibarət sərgiyə baxış keçirilib.

## “Araz sahilində doğan günəş” tamaşası Bakı şəhərində nümayiş olunub





Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş “Araz sahilində doğan günəş” tamaşası Bakı şəhərində Akademik Rus Dram Teatrında nümayiş olunub.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Həsənəli Eyvazlının qələmə aldığı “Araz sahilində doğan günəş” dramı əsasında hazırlanan eyniadlı səhnə əsəri tamaşaçılara təqdim edilib.

Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Azərbaycan Respublikasının tanınmış incəsənət xadimləri, ictimaiyyət nümayəndələri tamaşanı izləyiblər.

“Araz sahilində doğan günəş” tamaşası ötən əsrin əvvəllərindən regionda, eləcə də ölkəmizdə baş verən ictimai, siyasi hadisələr, muxtariyyətin qazanılması uğrunda aparılan mübarizədən bəhs edir.

Tamaşanın quruluşçu rejissoru Mir Qabil Əkbərov, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovdur. Tamaşada Xalq artistləri Rza Xudiyev (Tağı Səfiyev), Rövşən Hüseynov (Kərbalayı Kərəm), Həsən Ağasoy (Bağır kişi), Əməkdar artistlər Əli Əliyev (Nəriman Nərimanov), Behruz Haxverdiyev (İbrahim Əbilov), Vidadi Rəcəbli (Veysəl bəy), Əbülfəz İmanov (Çiçərin), Nazlı Hüseynquliyeva (Müşkünaz arvad), Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev (Mustafa Kamal Paşa), Uğur Nəsirli (Mirzə Davud Hüseynov), Məmməd Mehdiyev (Behbud ağa Şahtaxtinski), Ələsgər Quliyev (Stalin), Anar Eyvazov (Yusif Kamal bəy) və digər aktyorlar rol alıb.

Tamaşa Ümummilli Lider Heydər Əliyevin Naxçıvanın muxtariyyəti ilə bağlı səsləndirdiyi tarixi fikirləri ilə sona çatıb.

Qeyd edək ki, səhnə əsəri Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair Tədbirlər Planı”na əsasən hazırlanıb.

## Ali Məclisin payız sessiyasının növbəti iclası keçirilib

Dekabrın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin payız sessiyasının növbəti iclası keçirilib.

Bəxtiyar Məmmədov iclasın gündəliyində duran məsələnin “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin (ikinci oxunuş) müzakirəsi olduğunu bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini qeyd edib ki, qanun layihəsi 13 dekabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında müzakirə olunub, onun üzərində iş davam etdirilməklə birinci oxunuşda qəbul edilib.





Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti verilmiş təkliflərə, o cümlədən “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsindən irəli gələn muxtar respublika büdcəsindəki zəruri dəyişikliklərə Ali Məclisin müvafiq komitəsi ilə birlikdə baxaraq 20 dekabr 2024-cü il tarixdə “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin yenilənmiş variantını Ali Məclisə təqdim edib. Layihə Ali Məclisin İqtisadi siyasət komitəsində müzakirə edilib və ikinci oxunuş üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınıb.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev və Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov qanun layihəsi barədə məlumat veriblər.

Sonra gündəlikdə duran məsələ ətrafında müzakirələr aparılıb.

İclasda “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib, müzakirələr zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilməsi üçün layihə aparıcı komitəyə qaytarılıb.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclası öz işini başa çatdırıb.

## 2025-ci ilin büdcə layihəsi Ali Məclisdə təsdiq olunub

Dekabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin payız sessiyasının növbəti iclası keçirilib.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (üçüncü oxunuş);
2. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının layihəsi.

Gündəlikdə duran birinci məsələ ilə bağlı Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, qanun layihəsi 23 dekabr 2024-cü il tarixdə Ali Məclisin iclasında ikinci oxunuşda müzakirə edilib və aparıcı komitə tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclisin iclasının gündəliyinə salınıb.





Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev qanun layihəsi barədə məlumat verib.

Sonra “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov muxtar respublikanın sosial-iqtisadi inkişafı və 2025-ci il Naxçıvan Muxtar Respublikasının büdcəsi barədə çıxış edib.

Gündəlikdə duran ikinci məsələnin müzakirəsi zamanı qeyd olunub ki, Ali Məclisin Daxili Nizamnaməsinin 56-cı maddəsinə əsasən Ali Məclisin xərclər smetası Ali Məclisdə növbəti ilin büdcəsinə baxılarkən təsdiq edilir. Buna müvafiq olaraq “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında” qərar layihəsi hazırlanıb.

Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev Ali Məclisin 2025-ci il xərclər smetası haqqında məlumat verib.



“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclası öz işini başa çatdırıb.

## Ali Məclis sədrinin birinci müavini vətəndaşları qəbul edib



Dekabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov Şərur rayonunda sakinlərlə görüşüb.

Görüşdən əvvəl Ümummilli Lider Heydər Əliyevin Şərur şəhərində ucalan abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Sonra İcra Hakimiyyətinin inzibati binasında vətəndaş qəbulu keçirilib. Görüşdə vətəndaşların, o cümlədən şəhid ailələrinin problemləri dinlənilib, müraciətlərin hər birinin həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbirlərin görüləcəyi qeyd olunub.

## Ali Məclisin 2024-cü il payız sessiyasının sonuncu iclası keçirilib





Dekabrın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin payız sessiyasının sonuncu iclası keçirilib.

Əvvəlcə dekabrın 25-də Bakı-Qroznı istiqamətində uçan Azərbaycan Hava Yollarına məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İclasda Ali Məclis Aparatının rəhbəri Ülvi Hüseynli çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin illik fəaliyyəti ilə bağlı məlumat verib.

Ali Məclis sədrinin müavini Arzu Abdullayev, deputatlardan Emin Şıxəliyev, Zeynəb Quliyeva, Təhminə Babayeva və Əziz Qasımov çıxış ediblər.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov iclas iştirakçılarını və muxtar respublikanın bütün sakinlərini qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib.

Sonra Bəxtiyar Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il payız sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Ali Məclisin 2024-cü il payız sessiyası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikasında idarəetmə mexanizminin müasirləşdirilməsi, bu sahədə həyata keçirilən struktur islahatları və dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin işinin və strukturunun daha optimal şəkildə təşkil edilməsini və ədliyyə sahəsinin inkişafını zəruri edir.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin (bundan sonra – Penitensiar Xidmət) Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin, Mühafizə Taborunun və 8 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinin tibb xidməti sahəsində fəaliyyət göstərən struktur bölmələrinin əsasında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Tibb Xidməti (bundan sonra – Tibb Xidməti) yaradılsın.

2. "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin strukturu" təsdiq edilsin (1 nömrəli əlavə).

3. "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin kollegiyasının tərkibi" təsdiq edilsin (2 nömrəli əlavə).

4. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin (bundan sonra – Nazirlik) işçilərinin say həddi cəmi 759 ştat vahidi olmaqla, Nazirliyin Aparatı üzrə 81 ştat vahidi, Penitensiar Xidmət üzə 524 ştat vahidi, Tibb Xidməti üzrə 30 ştat vahidi, Nazirliyin Məhkəmə Ekspertizası Mərkəzi üzrə 34 ştat vahidi, yerli və digər qurumları üzrə 90 ştat vahidi müəyyən edilsin.

5. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2006-cı il 25 aprel tarixli 22-III FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

5.1. 8.4-cü bənddən ", normativ hüquqi aktların və normativ xarakterli aktların hüquqi ekspertizasını, dövlət uçotunu və dövlət qeydiyyatını aparır" sözləri çıxarılsın;

5.2. aşağıdakı məzmunda 8.4-1-ci, 8.8-1-ci, 9.5-1-ci və 9.15-1-ci bəndlər əlavə edilsin:

"8.4-1. Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrini aparır, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların (Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qərarları istisna olmaqla) məcburi hüquqi ekspertizasını keçirir;";

"8.8-1. dəfnlərin vahid dövlət reyestrinin aparılmasında iştirak edir;";

"9.5-1. Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrinə daxil edilmək üçün təqdim olunmuş mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların (Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qərarları istisna olmaqla) məcburi hüquqi ekspertizasını keçirmək;";

"9.15-1. dəfnlərin vahid dövlət reyestrinə ötürülən məlumatların tamlığına, həmin məlumatların müəyyən edilmiş müddətdə reyestrə ötürülməsinə nəzarətin həyata keçirilməsində iştirak etmək;";

5.3. 8.5-1-ci, 9.23-1-ci, 10.11-ci və 10.13-cü bəndlər ləğv edilsin;

5.4. 9.1-ci, 9.3-cü, 9.5-ci, 9.7-ci, 9.32-1-ci və 16.10-cu bəndlər aşağıdakı redaksiyada verilsin:

"9.1. ədliyyə sahəsində islahatların aparılmasında və bu sahədə inkişafı sürətləndirmək məqsədilə dövlət proqramlarının hazırlanmasında iştirak etmək, dövlət proqramlarının muxtar respublikada yerinə yetirilməsi üçün müvafiq tədbirlər görmək;";

"9.3. yeni normativ hüquqi aktların qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə təkliflər hazırlamaq;";

"9.5. Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin aparılmasını, idarə olunmasını, tamlığını, müvafiq internet informasiya ehtiyatı vasitəsilə ümumi istifadə üçün daimi açıqlığını və mühafizəsini təmin etmək üçün tədbirlər görmək;";

"9.7. ictimaiyyət üçün açıq olan hüquqi aktların vahid elektron bazasını aparmaq;";

"9.32-1. notariuslara və qeyri-hökumət təşkilatlarına münasibətdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı, o cümlədən hədəfli maliyyə sanksiyalarının tətbiqi ilə bağlı qanunla nəzərdə tutulmuş qaydada və hallarda nəzarət orqanının funksiyalarını həyata keçirmək;".

"16.10. dövlət orqanları və digər qurumlarla münasibətlərdə Nazirliyi təmsil edir;";

5.5. 9.4-cü bənddə "normativ hüquqi aktların və normativ xarakterli aktların" sözləri "qanun layihələrinin, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin aktlarının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının" sözləri ilə əvəz edilsin;

5.6. 9.6-cı bənddən ", ədliyyə orqanları və məhkəmələrin normativ hüquqi aktlarla təchiz olunmasını həyata keçirmək, onlara normativ hüquqi aktların nəzarət vəziyyətində saxlanılması üçün kömək göstərmək" sözləri çıxarılsın;

5.7. 9.16-cı bənddən "yerli və beynəlxalq" sözləri çıxarılsın;

5.8. 10.2-ci bənddə "zərurət olarsa, öz qərarlarını müvafiq icra hakimiyyəti orqanları" sözləri "öz qərarlarını aidiyyəti üzrə dövlət orqanları (qurumları)" sözləri ilə əvəz edilsin;

5.9. 10.4-cü bəndə "aktlar" sözündən sonra "(Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qərarları istisna olmaqla)" sözləri, "orqanlar" sözündən sonra "(qurumlar)" sözü əlavə edilsin və həmin bənddə "qüvvədən düşməsi, yaxud onlara əlavə və" sözləri "ləğv edilməsi və ya onlarda" sözləri ilə əvəz edilsin;

5.10. 10.14-cü bənddə "keçirilməsinə yardım etmək" sözləri "keçirilməsində və hüquqi yardımın göstərilməsində iştirak etmək" sözləri ilə əvəz edilsin;

5.11. 10.23-cü bənddən "və xarici dövlətlərin" sözləri çıxarılsın;

5.12. 10.25-ci bənddən "qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək," sözləri çıxarılsın;

5.13. 11-ci hissədə "xidmət," sözündən sonra "tibb xidməti," sözləri əlavə edilsin;

5.14. 15-ci hissədə "müavini ona" sözləri "müavinləri onlara" sözləri ilə, "daşıyır" sözü "daşıyırlar" sözü ilə əvəz edilsin;

5.15. 16.12-ci bənddə "görür" sözündən sonra ", maraqların toqquşması hallarının yaranması və vəzifəli şəxslərin maraqların toqquşması şəraitində vəzifələrini icra etmələrinin qarşısını alır" sözləri əlavə edilsin;

5.16. 17-ci hissədə "müavininə" sözü "müavinlərindən birinə" sözləri ilə əvəz edilsin.

6. "Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinin strukturunun təsdiq edilməsi, mərkəzi aparatının işçilərinin say həddinin müəyyən edilməsi, Nazirliyin Penitensiar Xidmətinin, Xidmətin İstintaq təcridxanasının və Mühafizə Taburunun yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2007-ci il 5 oktyabr tarixli 86-III FR nömrəli Fərmanının 1-ci və 2-ci hissələri ləğv edilsin.

7. "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2015-ci il 22 oktyabr tarixli 162-IV FR nömrəli Fərmanının 2-ci hissəsi ləğv edilsin.

8. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aşağıdakı fərman və sərəncamları ləğv edilsin:

8.1. "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2009-cu il 9 iyun tarixli 165-III FR nömrəli Fərmanı;

8.2. "Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının tərkibinin, mərkəzi aparatının strukturunun və ştat sayının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2007-ci il 5 oktyabr tarixli 125-03/S nömrəli Sərəncamı;

8.3. "Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin, Xidmətin İstintaq Təcridxanasının, Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin, 8 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinin, 21 saylı Xüsusi Müəssisənin və Mühafizə Taburunun strukturunun və ştat sayının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2007-ci il 5 oktyabr tarixli 126-03/S nömrəli Sərəncamı;

8.4. "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ştat strukturunun təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin" 2015-ci il 22 oktyabr tarixli 326-04/S nömrəli Sərəncamı.

9. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi bu Fərmandan irəli gələn digər məsələləri həll etsinlər.

10. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini**
**Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 24 dekabr 2024-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 24 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin STRUKTURU

**1. Rəhbərlik**

1.1. Nazir

1.2. Nazir müavini

1.3. Nazir müavini – Penitensiar xidmətin rəisi

**2. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Aparatı**

2.1. Strateji planlaşdırma və monitorinq idarəsi

2.2. İcra və probasiya xidməti (idarə səlahiyyətli)

2.3. Notariat, qeydiyyat və reyestr şöbəsi

2.4. Qanunvericilik şöbəsi

2.5. Bələdiyyələrlə iş şöbəsi

2.6. Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş şöbəsi

2.7. Maliyyə və təminat şöbəsi

2.8. İnsan resursları bölməsi

2.9. İstintaq bölməsi

2.10. Mətbuat xidməti (bölmə səlahiyyətli)

**3. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin strukturuna daxil olan ədliyyə orqanları və təşkilatlar**

3.1. Penitensiar Xidmət (idarə səlahiyyətli)

3.2. Məhkəmə Ekspertizası Mərkəzi (idarə səlahiyyətli)

3.3. Tibb Xidməti (şöbə səlahiyyətli)

3.4. Yerli və digər qurumlar

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 24 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının TƏRKİBİ

**Kollegiyanın sədri**

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri

**Kollegiyanın üzvləri:**

Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini

Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini – Penitensiar xidmətin rəisi

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Strateji planlaşdırma və monitorinq idarəsinin rəisi

İcra və probasiya xidmətinin rəisi

Notariat, qeydiyyat və reyestr şöbəsinin rəisi

Qanunvericilik şöbəsinin rəisi

# Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

**Maddə 1.** Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin gəlirləri 493 143 000,0 manat (o cümlədən muxtar respublikanın vergilər, rüsumlar və digər ödənişləri 207 430 000,0 manat, Azərbaycan Respublikasının dövlət büdcəsindən daxil olan dotasiya (transfertin yuxarı həddi) 285 713 000,0 manat), xərcləri 505 184 000,0 manat, (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 447 498 500,0 manat, yerli gəlirləri 45 644 500,0 manat, mərkəzləşdirilmiş xərcləri 453 320 500,0 manat, yerli xərcləri 51 863 500,0 manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 46 876 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 17 000 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 300 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 2 400 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 60 760 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 5 000 000,0 |
| 2.7. | Aksizlər | 50 488 000,0 |
| 2.8. | Yol vergisi | 12 000 000,0 |
| 2.8.1. | Xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 12 000 000,0 |
| 2.9. | Mədən vergisi | 1 260 000,0 |
| 2.10. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 85 000,0 |
| 2.11. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 150 000,0 |
| 2.12. | Dövlət rüsumu | 7 000 000,0 |
| 2.13. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 250 000,0 |
| 2.14. | Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılan dotasiya (transfertin yuxarı həddi) | 285 713 000,0 |
| 2.15. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 2 571 000,0 |
| 2.16. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu üzrə daxilolmalar | 700 000,0 |
| 2.17. | Sair daxilolmalar | 590 000,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu Naxçıvan Muxtar Respublikasının büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

| | | |
|---|---|---|
| 3.1. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu üzrə daxilolmalar | 13 150 000,0 |
| 3.1.1. | yol vergisi | 12 000 000,0 |
| 3.1.2. | mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 150 000,0 |
| 3.1.3. | nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 1 000 000,0 |

**Maddə 4.** Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 4.1. | Ümumi dövlət xidmətləri | 83 268 046,0 |
| 4.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 80 037 695,0 |
| 4.1.2. | elm | 3 230 351,0 |
| 4.2. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 88 041 370,0 |
| 4.2.1. | məhkəmə hakimiyyəti | 10 684 213,0 |
| 4.2.2. | hüquq mühafizə | 69 873 773,0 |
| 4.2.3. | prokurorluq | 6 929 772,0 |
| 4.2.4. | məhkəmə qərarlarının icrası | 400 000,0 |
| 4.2.5. | hüquqi yardım | 153 612,0 |
| 4.3. | Təhsil | 156 981 830,0 |
| 4.3.1. | məktəbəqədər təhsil | 10 100 244,0 |
| 4.3.2. | ümumi təhsil | 118 829 283,0 |
| 4.3.3. | peşə təhsili | 2 127 728,0 |
| 4.3.4. | əlavə təhsil | 162 617,0 |
| 4.3.5. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 25 761 958,0 |
| 4.4. | Səhiyyə | 12 774 326,0 |
| 4.4.1. | xəstəxanalar | 5 803 245,0 |
| 4.4.2. | diaqnostika, profilaktika və qan xidməti ilə bağlı fəaliyyət | 5 827 653,0 |
| 4.4.3. | səhiyyə sahəsində digər xidmətlər | 1 143 428,0 |
| 4.5. | Sosial müdafiə və sosial təminat | 10 922 526,0 |
| 4.5.1. | sosial müdafiə | 932 188,0 |
| 4.5.2. | sosial təminat | 4 739 098,0 |
| 4.5.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 5 251 240,0 |
| 4.6. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 25 944 635,0 |
| 4.6.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 17 645 972,0 |
| 4.6.2. | televiziya, radio və nəşriyyat | 5 891 804,0 |
| 4.6.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 618 356,0 |
| 4.6.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 422 977,0 |
| 4.6.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər müəssisə və tədbirlər | 1 365 526,0 |
| 4.7. | Mənzil və kommunal təsərrüfatı | 18 872 642,0 |
| 4.7.1. | mənzil təsərrüfatı | 857 000,0 |
| 4.7.2. | kommunal təsərrüfatı | 14 450 093,0 |
| 4.7.3. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 3 565 549,0 |
| 4.8. | Kənd təsərrüfatı | 13 968 023,0 |
| 4.8.1. | kənd təsərrüfatı tədbirləri | 11 877 463,0 |
| 4.8.2. | baytarlıq | 2 090 560,0 |
| 4.9. | Ətraf mühitin mühafizəsi | 16 027 402,0 |
| 4.9.1. | ətraf mühitin və təbiətin mühafizəsi | 92 785,0 |
| 4.9.2. | bioloji zənginliyin qorunması | 974 691,0 |
| 4.9.3. | torpaq və yerquruluşu | 820 000,0 |
| 4.9.4. | hidrometeorologiya tədbirləri | 955 110,0 |
| 4.9.5. | meşə təsərrüfatı | 1 267 658,0 |
| 4.9.6. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 11 420 858,0 |
| 4.9.7. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 496 300,0 |
| 4.10. | İqtisadi fəaliyyət | 43 908 000,0 |
| 4.10.1. | nəqliyyat və rabitə | 17 118 000,0 |
| 4.10.2. | iqtisadi və kommersiya fəaliyyəti | 860 000,0 |
| 4.10.3. | tikinti və şəhərsalma | 22 000 000,0 |
| 4.10.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 22 000 000,0 |
| 4.10.4. | geodeziya və faydalı qazıntılar | 500 000,0 |
| 4.10.5. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 3 430 000,0 |
| 4.11. | Əsas bölmələrə aid edilməyən xərclər | 34 475 200,0 |
| 4.11.1. | ehtiyat fondları | 5 884 000,0 |
| 4.11.1.1. | Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu | 5 884 000,0 |
| 4.11.2. | məqsədli büdcə fondları | 25 891 000,0 |
| 4.11.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 25 891 000,0 |
| 4.11.3. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 2 700 200,0 |
| 4.11.3.1. | ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 700 200,0 |
| 4.11.3.2. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 1 000 000,0 |
| 4.11.3.3. | digər tədbirlər üzrə xərclər | 1 000 000,0 |

**Maddə 5.** Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 6.** Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə gəlirlər 82 650 000,0 manat, o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ 150 000,0 manat, yerli xərclər 51 863 500,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 36 855 500,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 6 219 000,0 manat məbləğində təsdiq edilsin.

(manatla)

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər | | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ | | | |
| | **Şəhər** | | | | | |
| 1. | Naxçıvan | 50 000 000 | 40 000 | 18 386 500 | 31 573 500 | |
| | **Rayonlar** | | | | | |
| 2. | Şərur | 9 000 000 | 20 000 | 7 595 000 | 1 385 000 | |
| 3. | Babək | 8 400 000 | 40 000 | 5 187 000 | 3 173 000 | |
| 4. | Ordubad | 3 500 000 | 10 000 | 5 464 000 | | 1 974 000 |
| 5. | Culfa | 3 700 000 | 20 000 | 5 483 000 | | 1 803 000 |
| 6. | Şahbuz | 3 500 000 | 12 000 | 4 416 000 | | 928 000 |
| 7. | Kəngərli | 3 700 000 | 7 000 | 2 969 000 | 724 000 | |
| 8. | Sədərək | 850 000 | 1 000 | 2 363 000 | | 1 514 000 |
| | **Cəmi:** | **82 650 000** | **150 000** | **51 863 500** | **36 855 500** | **6 219 000** |

**Maddə 7.** Naxçıvan Muxtar Respublikasının büdcəsinin icrası prosesində "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən müdafiə olunan xərc maddələri ilk növbədə, digər xərc maddələri isə Naxçıvan Muxtar Respublikasının büdcəsinin daxilolmalarının vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

**Maddə 8.** Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin kəsiri 12 041 000,0 manat məbləğində təsdiq edilsin və həmin kəsrin bağlanması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondunun 2025-ci il yanvarın 1-nə olan həmin məbləğdə vəsait qalığı hesabına təmin edilsin.

**Maddə 9.** Bu Qanun 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 25 dekabr 2024-cü il*

## "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin FƏRMANI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2024-cü il 25 dekabr tarixli 3-VII QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2024-cü il 25 dekabr tarixli 3-VII QN nömrəli Qanununun 4-cü maddəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində ayrılan vəsaitin məbləği inzibati təsnifata uyğun olaraq büdcədən maliyyələşdirilən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə aşağıdakı qaydada təsdiq edilsin:

manatla

| Sıra №-si | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| **1.1.** | **Ümumi dövlət xidmətləri** | **83 268 046,0** | **62 398 246,0** | **20 869 800,0** |
| **1.1.1.** | **Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti** | **80 037 695,0** | **59 316 895,0** | **20 720 800,0** |
| 1.1.1.1. | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | 8 068 110,0 | 8 068 110,0 | |
| 1.1.1.2. | Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 4 382 735,0 | 4 382 735,0 | |
| 1.1.1.3. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 5 282 353,0 | 5 282 353,0 | |
| 1.1.1.4. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi | 2 910 320,0 | 2 910 320,0 | |
| 1.1.1.5. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 1 655 391,0 | 1 655 391,0 | |
| 1.1.1.6. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2 014 025,0 | 2 014 025,0 | |
| 1.1.1.7. | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 1 551 965,0 | 1 551 965,0 | |
| 1.1.1.8. | Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 1 436 215,0 | 1 436 215,0 | |
| 1.1.1.9. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 3 207 690,0 | 3 207 690,0 | |
| 1.1.1.10. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 1 526 716,0 | 1 526 716,0 | |
| 1.1.1.11. | Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 2 842 780,0 | 2 842 780,0 | |
| 1.1.1.12. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 434 154,0 | 1 434 154,0 | |
| 1.1.1.13. | Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi | 2 627 765,0 | 2 627 765,0 | |
| 1.1.1.14. | Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 317 425,0 | 1 317 425,0 | |
| 1.1.1.15. | Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 849 761,0 | 849 761,0 | |
| 1.1.1.16. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | 6 167 324,0 | 6 167 324,0 | |

| | | | | |
|---|---|---|---|---|
| 1.1.1.17. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 2 427 694,0 | 2 427 694,0 | |
| 1.1.1.18. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 1 662 700,0 | 1 662 700,0 | |
| 1.1.1.19. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti | 673 883,0 | 673 883,0 | |
| 1.1.1.20. | Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi | 424 287,0 | 424 287,0 | |
| 1.1.1.21. | Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti | 481 002,0 | 481 002,0 | |
| 1.1.1.22. | Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyi | 794 590,0 | 794 590,0 | |
| 1.1.1.23. | Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi | 631 250,0 | 631 250,0 | |
| 1.1.1.24. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 867 445,0 | 867 445,0 | |
| 1.1.1.25. | Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | 1 525 580,0 | 1 525 580,0 | |
| 1.1.1.26. | Şəhər və rayon icra hakimiyyəti orqanlarının saxlanılması | 20 720 800,0 | | 20 720 800,0 |
| 1.1.1.27. | Naxçıvan Muxtar Respublikasının digər mərkəzi təşkilatlarının saxlanılması | 1 551 235,0 | 1 551 235,0 | |
| 1.1.1.27.1. | Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) | 1 010 315,0 | 1 010 315,0 | |
| 1.1.1.27.2. | Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası | 540 920,0 | 540 920,0 | |
| 1.1.1.28. | Qanunvericilik və icra hakimiyyəti orqanları üzrə büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 1 002 500,0 | 1 002 500,0 | |
| **1.1.2.** | **Elm** | **3 230 351,0** | **3 081 351,0** | **149 000,0** |
| 1.1.2.1. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi | 1 183 769,0 | 1 183 769,0 | |
| 1.1.2.2. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi | 33 523,0 | 33 523,0 | |
| 1.1.2.3. | Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Akademik Həsən Əliyev adına Naxçıvan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutu | 848 477,0 | 848 477,0 | |
| 1.1.2.4. | Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi | 1 134 582,0 | 985 582,0 | 149 000,0 |
| 1.1.2.5. | Elm sahəsi üzrə büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 30 000,0 | 30 000,0 | |
| **1.2.** | **Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq** | **88 041 370,0** | **88 041 370,0** | |
| **1.2.1.** | **Məhkəmə hakimiyyəti** | **10 684 213,0** | **10 684 213,0** | |
| 1.2.1.1. | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 4 514 145,0 | 4 514 145,0 | |
| 1.2.1.2. | Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 964 460,0 | 964 460,0 | |
| 1.2.1.3. | Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 919 143,0 | 919 143,0 | |
| 1.2.1.4. | Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi | 808 370,0 | 808 370,0 | |
| 1.2.1.5. | Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi | 621 582,0 | 621 582,0 | |
| 1.2.1.6. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi (maliyyə təminatı, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən şəhər və rayon məhkəmələri) | 2 856 513,0 | 2 856 513,0 | |
| **1.2.2.** | **Hüquq mühafizə** | **69 873 773,0** | **69 873 773,0** | |
| 1.2.2.1. | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi | 36 665 748,0 | 36 665 748,0 | |
| 1.2.2.2. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi | 4 527 281,0 | 4 527 281,0 | |
| 1.2.2.3. | Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi | 17 595 226,0 | 17 595 226,0 | |
| 1.2.2.4. | Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 9 625 518,0 | 9 625 518,0 | |
| 1.2.2.5. | Hüquq mühafizə orqanları üzrə büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 1 460 000,0 | 1 460 000,0 | |
| **1.2.3.** | **Prokurorluq** | **6 929 772,0** | **6 929 772,0** | |
| 1.2.3.1. | Naxçıvan Muxtar Respublikasının Prokurorluğu | 6 926 772,0 | 6 926 772,0 | |
| 1.2.3.2. | Prokurorluq orqanları üzrə büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 3 000,0 | 3 000,0 | |
| **1.2.4.** | **Məhkəmə qərarlarının icrası** | **400 000,0** | **400 000,0** | |
| 1.2.4.1. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 400 000,0 | 400 000,0 | |
| **1.2.5.** | **Hüquqi yardım** | **153 612,0** | **153 612,0** | |
| 1.2.5.1. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi (məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım və xidmətlər) | 3 012,0 | 3 012,0 | |
| 1.2.5.2. | Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası | 150 600,0 | 150 600,0 | |
| **1.3.** | **Təhsil** | **156 981 830,0** | **156 981 830,0** | |
| **1.3.1.** | **Məktəbəqədər təhsil** | **10 100 244,0** | **10 100 244,0** | |
| 1.3.1.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 10 100 244,0 | 10 100 244,0 | |
| **1.3.2.** | **Ümumi təhsil** | **118 829 283,0** | **118 829 283,0** | |
| 1.3.2.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 118 793 283,0 | 118 793 283,0 | |
| 1.3.2.2. | Təhsil sahəsi üzrə büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 36 000,0 | 36 000,0 | |
| **1.3.3.** | **Peşə təhsili** | **2 127 728,0** | **2 127 728,0** | |
| 1.3.3.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 2 127 728,0 | 2 127 728,0 | |
| **1.3.4.** | **Əlavə təhsil** | **162 617,0** | **162 617,0** | |
| 1.3.4.1. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 162 617,0 | 162 617,0 | |
| **1.3.5.** | **Təhsil sahəsində digər müəssisə və tədbirlər** | **25 761 958,0** | **25 761 958,0** | |
| 1.3.5.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 10 690 521,0 | 10 690 521,0 | |
| 1.3.5.2. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 15 071 437,0 | 15 071 437,0 | |
| **1.4.** | **Səhiyyə** | **12 774 326,0** | **12 774 326,0** | |
| **1.4.1.** | **Xəstəxanalar** | **5 803 245,0** | **5 803 245,0** | |
| 1.4.1.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 5 803 245,0 | 5 803 245,0 | |
| **1.4.2.** | **Diaqnostika, profilaktika və qan xidməti ilə bağlı fəaliyyət** | **5 827 653,0** | **5 827 653,0** | |
| 1.4.2.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 5 827 653,0 | 5 827 653,0 | |
| **1.4.3.** | **Səhiyyə sahəsində digər xidmətlər** | **1 143 428,0** | **1 143 428,0** | |
| 1.4.3.1. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi | 500 000,0 | 500 000,0 | |
| 1.4.3.2. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 643 428,0 | 643 428,0 | |
| **1.5.** | **Sosial müdafiə və sosial təminat** | **10 922 526,0** | **10 922 526,0** | |
| **1.5.1.** | **Sosial müdafiə** | **932 188,0** | **932 188,0** | |
| 1.5.1.1. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 932 188,0 | 932 188,0 | |
| **1.5.2.** | **Sosial təminat** | **4 739 098,0** | **4 739 098,0** | |
| 1.5.2.1. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxs | 4 739 098,0 | 4 739 098,0 | |
| **1.5.3.** | **Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər** | **5 251 240,0** | **5 251 240,0** | |
| 1.5.3.1. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 651 240,0 | 651 240,0 | |
| 1.5.3.2. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxs | 4 600 000,0 | 4 600 000,0 | |
| **1.6.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət** | **25 944 635,0** | **25 944 635,0** | |
| **1.6.1.** | **Mədəniyyət və incəsənət sahəsində fəaliyyət** | **17 645 972,0** | **17 645 972,0** | |
| 1.6.1.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 46 271,0 | 46 271,0 | |
| 1.6.1.2. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 17 599 701,0 | 17 599 701,0 | |
| **1.6.2.** | **Televiziya, radio və nəşriyyat** | **5 891 804,0** | **5 891 804,0** | |
| 1.6.2.1. | "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti | 5 131 554,0 | 5 131 554,0 | |
| 1.6.2.2. | Nəşriyyat | 750 750,0 | 750 750,0 | |
| 1.6.2.3. | Televiziya, radio və nəşriyyat köməkçi bölməsi üzrə büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 9 500,0 | 9 500,0 | |
| **1.6.3.** | **Bədən tərbiyəsi və gənclər siyasəti** | **618 356,0** | **618 356,0** | |
| 1.6.3.1. | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 618 356,0 | 618 356,0 | |
| 1.6.3.1.1. | Bədən tərbiyəsi və idmanın təşkili | 490 899,0 | 490 899,0 | |
| 1.6.3.1.2. | Gənclər siyasəti | 127 457,0 | 127 457,0 | |
| **1.6.4.** | **Yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər** | **422 977,0** | **422 977,0** | |
| 1.6.4.1. | Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı | 422 977,0 | 422 977,0 | |
| **1.6.5.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər müəssisə və tədbirlər** | **1 365 526,0** | **1 365 526,0** | |
| 1.6.5.1. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 1 365 526,0 | 1 365 526,0 | |
| **1.7.** | **Mənzil və kommunal təsərrüfatı** | **18 872 642,0** | | **18 872 642,0** |
| 1.7.1. | Mənzil təsərrüfatı | 857 000,0 | | 857 000,0 |
| 1.7.2. | Kommunal təsərrüfatı | 14 450 093,0 | | 14 450 093,0 |
| 1.7.3. | Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 3 565 549,0 | | 3 565 549,0 |
| **1.8.** | **Kənd təsərrüfatı** | **13 968 023,0** | **13 968 023,0** | |
| **1.8.1.** | **Kənd təsərrüfatı tədbirləri** | **11 877 463,0** | **11 877 463,0** | |
| 1.8.1.1. | Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 699 643,0 | 699 643,0 | |
| 1.8.1.2. | Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər | 10 300 000,0 | 10 300 000,0 | |
| 1.8.1.3. | Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Naxçıvan Aqrar Xidmətlər Mərkəzi" publik hüquqi şəxs | 847 820,0 | 847 820,0 | |
| 1.8.1.4. | Kənd təsərrüfatı sahəsi üzrə büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 30 000,0 | 30 000,0 | |
| **1.8.2.** | **Baytarlıq** | **2 090 560,0** | **2 090 560,0** | |
| 1.8.2.1. | Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Naxçıvan Aqrar Xidmətlər Mərkəzi" publik hüquqi şəxs | 2 090 560,0 | 2 090 560,0 | |
| **1.9.** | **Ətraf mühitin mühafizəsi** | **16 027 402,0** | **4 606 544,0** | **11 420 858,0** |
| **1.9.1.** | **Ətraf mühitin və təbiətin mühafizəsi** | **92 785,0** | **92 785,0** | |
| 1.9.1.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 92 785,0 | 92 785,0 | |
| **1.9.2.** | **Bioloji zənginliyin qorunması** | **974 691,0** | **974 691,0** | |
| 1.9.2.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 974 691,0 | 974 691,0 | |
| **1.9.3.** | **Torpaq və yerquruluşu** | **820 000,0** | **820 000,0** | |
| 1.9.3.1. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (yerquruluşu və torpaqların kadastrı işlərinin təşkili) | 820 000,0 | 820 000,0 | |
| **1.9.4.** | **Hidrometeorologiya tədbirləri** | **955 110,0** | **955 110,0** | |
| 1.9.4.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 955 110,0 | 955 110,0 | |
| **1.9.5.** | **Meşə təsərrüfatı** | **1 267 658,0** | **1 267 658,0** | |
| 1.9.5.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 267 658,0 | 1 267 658,0 | |
| **1.9.6.** | **Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi** | **11 420 858,0** | | **11 420 858,0** |
| 1.9.6.1. | Ətraf mühitin mühafizəsi sahəsi üzrə yaşayış məntəqələrinə aid olan kommunal təyinatlı infrastrukturların bərpası, yenidən qurulması və abadlaşdırılması | 11 420 858,0 | | 11 420 858,0 |
| **1.9.7.** | **Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər** | **496 300,0** | **496 300,0** | |
| 1.9.7.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 496 300,0 | 496 300,0 | |
| **1.10.** | **İqtisadi fəaliyyət** | **43 908 000,0** | **43 908 000,0** | |
| **1.10.1.** | **Nəqliyyat və rabitə** | **17 118 000,0** | **17 118 000,0** | |
| 1.10.1.1. | Avtomobil yollarının əsaslı və cari təmiri xərcləri | 16 600 000,0 | 16 600 000,0 | |
| 1.10.1.2. | "Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxs | 518 000,0 | 518 000,0 | |
| **1.10.2.** | **İqtisadi və kommersiya fəaliyyəti** | **860 000,0** | **860 000,0** | |
| 1.10.2.1. | "Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu" publik hüquqi şəxs | 860 000,0 | 860 000,0 | |
| **1.10.3.** | **Tikinti və şəhərsalma** | **22 000 000,0** | **22 000 000,0** | |
| 1.10.3.1. | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 22 000 000,0 | 22 000 000,0 | |
| **1.10.4.** | **Geodeziya və faydalı qazıntılar** | **500 000,0** | **500 000,0** | |
| 1.10.4.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 500 000,0 | 500 000,0 | |
| **1.10.5.** | **İqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər** | **3 430 000,0** | **3 430 000,0** | |
| 1.10.5.1. | Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 300 000,0 | 300 000,0 | |
| 1.10.5.2. | "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması | 2 750 000,0 | 2 750 000,0 | |
| 1.10.5.3. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxs | 380 000,0 | 380 000,0 | |
| **1.11.** | **Əsas bölmələrə aid edilməyən xərclər** | **34 475 200,0** | **33 775 000,0** | **700 200,00** |
| **1.11.1.** | **Ehtiyat fondları** | **5 884 000,0** | **5 884 000,0** | |
| 1.11.1.1. | Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu | 5 884 000,0 | 5 884 000,0 | |
| **1.11.2.** | **Məqsədli büdcə fondları** | **25 891 000,0** | **25 891 000,0** | |
| 1.11.2.1. | Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu | 700 000,0 | 700 000,0 | |
| 1.11.2.2. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 25 191 000,0 | 25 191 000,0 | |
| **1.11.3.** | **Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət** | **2 700 200,0** | **2 000 000,0** | **700 200,0** |
| 1.11.3.1. | Ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 700 200,0 | | 700 200,0 |
| 1.11.3.2. | Fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 1 000 000,0 | 1 000 000,0 | |
| 1.11.3.3. | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 1 000 000,0 | 1 000 000,0 | |

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının 2024-cü il 25 dekabr tarixli 3-VII QN nömrəli Qanunu ilə büdcənin gəlirləri və xərcləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

2.2. bu Fərmanın 1.6.2.2-ci (Nəşriyyat) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin razılığı ilə həyata keçirsin;

2.3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə razılaşdırmaqla bu Fərmanın 1.8.1.2-ci (Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

2.4. bu Fərmanın 1.10.1.1-ci (Avtomobil yollarının əsaslı və cari təmiri xərcləri) və 1.10.3.1-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) abzaslarında nəzərdə tutulan vəsaitin obyektlər və istiqamətlər üzrə bölgüsünü iki ay müddətində təsdiq etsin;

2.5. bu Fərmanın 1.11.1.1-ci abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

2.6. “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının 2024-cü il 25 dekabr tarixli 3-VII QN nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi:

3.1. 2025-ci ilin büdcəsinə tutulması vergi orqanlarının səlahiyyətlərinə aid edilmiş vergi və dövlət rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

3.2. 2025-ci ilin büdcəsinə dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş yol vergisi üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü 15 (on beş) gün müddətində təsdiq etsin;

3.3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə razılaşdırmaqla:

3.3.1. bu Fərmanın 1.1.1.28-ci, 1.1.2.5-ci, 1.2.2.5-ci, 1.2.3.2-ci, 1.3.2.2-ci, 1.6.2.3-cü, 1.8.1.4-cü abzaslarında nəzərdə tutulan vəsaitin (büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini bir ay müddətində təmin etsin;

3.3.2. bu Fərmanın 1.11.2.1-ci abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

3.4. bu Fərmanın 1.11.3.3-cü abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

3.5. “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının 2024-cü il 25 dekabr tarixli 3-VII QN nömrəli Qanununun 7-ci və 8-ci maddəsindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

3.6. “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının 2024-cü il 25 dekabr tarixli 3-VII QN nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. bu Fərmanın 1.10.1.1-ci (Avtomobil yollarının əsaslı və cari təmiri xərcləri) və 1.10.3.1-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərini 2025-ci il yanvarın 25-dək Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.2. “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının 2024-cü il 25 dekabr tarixli 3-VII QN nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi bu Fərmanın 1.6.4.1-ci (Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı) abzasında nəzərdə tutulan vəsaitin aidiyyəti təşkilatlar arasında bölgüsünü 20 (iyirmi) gün müddətində Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin və bölgüyə uyğun ödənişləri təmin etsin.

6. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi bu Fərmanın 1.11.3.2-ci (Fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həyata keçirsin.

7. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat, Kənd Təsərrüfatı nazirlikləri, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti aidiyyəti üzrə bu Fərmanın 1.5.2.1-ci, 1.5.3.2-ci, 1.8.1.3-cü, 1.8.2.1-ci, 1.10.1.2-ci, 1.10.2.1-ci və 1.10.5.3-cü abzaslarında göstərilən publik hüquqi şəxslər üçün nəzərdə tutulmuş vəsait daxilində, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2019-cu il 29 dekabr tarixli 195-V FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitin ödənilməsi Qaydası”na uyğun olaraq, müvafiq publik hüquqi şəxslərlə 15 (on beş) gün müddətində dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsini təmin edən ikitərəfli müqavilələrin rəsmiləşdirilməsi üçün tədbirlər görsünlər.

8. Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi “Avtomobil Yolları” Məqsədli Büdcə Fondunun xərclər smetasını, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinin təklifləri nəzərə alınmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə razılaşdırmaqla təsdiq etsin.

9. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, büdcədən maliyyələşdirilən və maliyyə yardımı alan təşkilatlar və digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi və büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

10. Müəyyən edilsin ki:

10.1. “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının 2024-cü il 25 dekabr tarixli 3-VII QN nömrəli Qanununun 2.16-cı maddəsində, 3-cü maddəsinin birinci abzasında, 3.1-ci, 4.11.2.1-ci, 6-cı (hər iki halda) və 8-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri həyata keçirir;

10.2. “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının 2024-cü il 25 dekabr tarixli 3-VII QN nömrəli Qanununun 2.16-cı maddəsində “məqsədli büdcə fondu” dedikdə Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu nəzərdə tutulur;

10.3. həmin Qanunun 3-cü maddəsinin birinci abzasında, 3.1-ci, 6-cı (hər iki halda) və 8-ci maddələrində “məqsədli büdcə fondu” dedikdə “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu nəzərdə tutulur;

10.4. həmin Qanunun 4.11.2.1-ci maddəsində “məqsədli büdcə fondları” dedikdə “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu və Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu nəzərdə tutulur.

11. Bu Fərmanın 1-ci hissəsi 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini**
**Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 29 dekabr 2024-cü il*

## “Naxçıvan şəhəri: tarixi-siyasi və mədəni inkişafı XIX əsr” kitabının təqdimatı olub



Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Arzu Abdullayevin muxtar respublikanın 100 illik yubileyinə həsr olunmuş “Naxçıvan şəhəri: tarixi-siyasi və mədəni inkişafı XIX əsr” kitabının təqdimat mərasimi keçirilib.



Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin 2023-cü il 30 dekabr tarixli Sərəncamı ilə muxtar respublikanın 100 illik yubileyi geniş şəkildə qeyd olundu. Türkiyə Respublikasının bir sıra şəhərində, ölkəmizin regionlarında, o cümlədən Bakıda və Naxçıvanda silsilə yubiley tədbirləri keçirildi. Naxçıvan Dövlət Universitetinin alim və pedaqoji heyəti muxtar respublikanın tarixi, mədəniyyəti və ədəbiyyatının araşdırılması istiqamətində elmi tədqiqatlar apardı, monoqrafiyalar, əsərlər ərsəyə gətirildi.

Rektor qeyd edib ki, Ali Məclis sədrinin müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Arzu Abdullayevin uzunmüddətli elmi tədqiqatlarının nəticəsi olaraq işıq üzü görən “Naxçıvan şəhəri: tarixi-siyasi və mədəni inkişafı XIX əsr” kitabı Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş dəyərli əsərdir. Çox aktual və əhəmiyyətli bir mövzuya həsr olunan kitabda Naxçıvan diyarı və onun tarixi, siyasi, mədəni və ictimai mərkəzi olan Naxçıvan şəhərindən söhbət açılır. Nəşrdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan şəhərinin XIX əsr tarixi kompleks şəkildə araşdırılır. Naxçıvan şəhərinin Rusiya imperiyası tərəfindən işğalı, bölgənin inzibati ərazi quruluşunda dəyişikliklər və idarəçilik sistemi, sosial-iqtisadi və mədəni həyatı, ermənilərin Naxçıvana köçürülməsi elmi dövriyyəyə yeni cəlb edilmiş sənəd və materiallar əsasında öyrənilir. Əsər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan tarixinin digər istiqamətləri kimi şəhər tarixinin öyrənilməsi, tədqiqatçılar, alimlər, tələbə və magistrantlar üçün zəngin mənbə rolunu oynayır.

Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix elmləri doktoru Emin Şıxəliyev, Naxçıvan Dövlət Universitetinin məsləhətçi-professoru, tarix elmləri doktoru Hacı Fəxrəddin Səfərli, universitetin Magistratura və doktorantura mərkəzinin direktoru, psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev və Ali Məclisin deputatı, tarix üzrə fəlsəfə doktoru Asəf Orucov çıxış ediblər. Çıxışlarda kitabın Azərbaycan və Naxçıvan tarixşünaslığının araşdırılıb öyrənilməsindəki rolundan ətraflı söhbət açılıb. Qeyd edilib ki, əsərdə XIX əsr Naxçıvan tarixi, şəhərin elmi mühiti, ictimai, siyasi həyatı dərin şəkildə tədqiqata cəlb olunaraq öyrənilib, nəşr yubiley ilinə mühüm töhfə olaraq ithaf edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini, tarix üzrə fəlsəfə doktoru, müəllif Arzu Abdullayev təqdimat mərasimin təşkilinə, səslənən fikirlərə görə təşəkkür edib. Bildirib ki, çıxışlarda da qeyd olunduğu kimi, Ümummilli Liderimiz Heydər Əliyev XIX və XX əsr Azərbaycan tarixinin tədqiq olunmasını, araşdırılıb öyrənilməsini mühüm vəzifə kimi qarşıya qoyub. Bu baxımdan “Naxçıvan şəhəri: tarixi-siyasi və mədəni inkişafı XIX əsr” kitabı bu vəzifənin icrası istiqamətində həyata keçirilən işlərin tərkib hissəsidir. Əsər, eyni zamanda dövlət başçısı cənab İlham Əliyevin 2023-cü il dekabrın 30-da “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında” imzaladığı Sərəncama, muxtar respublikanın inkişafı naminə həyata keçirdiyi tədbirlərə minnətdarlıq hissinin ifadəsidir.

## Media nümayəndələri üçün təlim keçirilib



Dövlət Miqrasiya Xidmətinin və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə Naxçıvan regional miqrasiya baş idarəsində “Miqrasiya maarifləndirilməsində medianın rolu” mövzusunda təlim keçirilib.

Media nümayəndələrinin miqrasiya sahəsində məlumatlılığının artırılması məqsədilə təşkil olunan tədbirdə DMX və MEDİA rəsmiləri, media nümayəndələri iştirak ediblər.

Tədbirdə miqrasiyanın daha səmərəli idarə edilməsində cəmiyyətin, eyni zamanda medianın aktiv iştirakının xüsusi əhəmiyyət kəsb etdiyi bildirilib. Media nümayəndələri, vətəndaş cəmiyyəti, elmi dairələr, özəl sektor, miqrant icmaları və digər maraqlı tərəflər arasında ideya və təcrübə mübadiləsinin aparılmasının miqrasiya sahəsində çətinlikləri müəyyən etmək, miqrasiya siyasətində kompleks yanaşmanı təmin etmək üçün vacib bir vasitə olduğu vurğulanıb.

Təlim çərçivəsində Dövlət Miqrasiya Xidmətinin əməkdaşları “Azərbaycanda miqrasiya idarəçiliyi” və “Dövlət Miqrasiya Xidmətinin maarifləndirmə alətləri, informasiya sorğularına dair tələblər” mövzularında təqdimatlarla çıxış edərək ölkəmizdə həyata keçirilən miqrasiya idarəçiliyi, bu sahədə əldə edilmiş nailiyyətlər, media məlumatlılığı, Dövlət Miqrasiya Xidmətinin maarifləndirmə alətləri, informasiya sorğularına dair tələblər barədə tədbir iştirakçılarına məlumat veriblər.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Ali Məclisin deputatları payız sessiyası dövründə 218 vətəndaş qəbulu keçiriblər





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi inkişaf strategiyası uğurla həyata keçirilir, məqsədyönlü və genişmiqyaslı islahatlar aparılır, makroiqtisadi sabitlik təmin edilir. Ölkədə uğurla aparılan ardıcıl islahatlar, müvəffəqiyyətlə reallaşdırılan iqtisadi strategiya bu il də hərtərəfli inkişafın davamlılığını təmin edib, bütün sahələrdə irəliləyişin əldə edilməsinə şərait yaradıb. Təqdirəlayiq haldır ki, bu inkişaf Naxçıvan Muxtar Respublikasını da əhatə edir. Muxtar respublikada həyata keçirilən islahatlar, cənab Prezidentin müvafiq fərmanı ilə yeni idarəetmə institutunun yaradılması bütün sahələrdə əhalinin üzləşdiyi çətinliklərin aradan qaldırılması istiqamətində mühüm əhəmiyyət kəsb edir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı muxtar respublika əhalisinə göstərilən növbəti diqqət və qayğının əyani ifadəsidir.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları da fəaliyyətlərini yaradılan şəraitə uyğun qurur, vətəndaşlarla işə xüsusi diqqət yetirir, təmsil etdikləri şəhər və rayonların inkişafı ilə bağlı səlahiyyətləri daxilində tədbirlər görürlər. Belə ki, 2024-cü ilin payız sessiyası dövründə deputatlar tərəfindən 914 sakinin iştirakı ilə 218 qəbul keçirilib, vətəndaşların müraciətlərinin həlli istiqamətində tədbirlər görülüb, araşdırılması ehtiyac olan məsələlərlə bağlı dövlət orqanlarına 112 sorğu göndərilib. Həmçinin bu dövr ərzində şəhid və qazi ailələri ilə 213, gənclərlə 11 görüş keçirilib.

Xalqımızın milli birliyini təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə deputatların təşəbbüsü ilə sosial yardıma ehtiyacı olan 304 aztəminatlı ailəyə sovqat paylanılıb, sakinlərin bayramları təbrik edilib.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2025-ci ilin yanvar ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 16.01.2025, saat $10^{30}$, Sədərək rayonu, Sədərək Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İsmayılzadə Seymur Elbəyi oğlu, 070-335-07-05 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 25.01.2025, saat $11^{00}$, Sədərək rayonu, Dəmirçi Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 24.01.2025, saat $11^{30}$, Şərur rayonu, Qaraburc Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Şirəliyev Musa Rzaqulu oğlu, 050-663-29-60<br>Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 4 saylı Yengicə seçki dairəsi üzrə Abbasov Əli Feyzulla oğlu | 27.01.2025, saat $15^{00}$, Şərur rayonu, Aşağı və Yuxarı Aralıq kənd sakinləri, Aralıq Kənd Mədəniyyət Evinin binası | Nəcəfov Milad Niyaz oğlu, 060-201-11-91 |
| 5. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 29.01.2025, saat $15^{00}$, Şərur rayonu, Alışar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 6. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 21.01.2025, saat $11^{00}$, Şərur rayonu, Arbatan Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-13 |
| 7. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 24.01.2025, saat $10^{00}$, Şərur rayonu, Stansiya Daşarx kənd sakinləri, Xanlıqlar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 8. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 24.01.2025, saat $15^{00}$, Şərur rayonu, Cəlilkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədova Fatimə Hüseyn qızı, 060-209-99-93 |
| 9. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 07.01.2025, saat $15^{00}$, Şərur rayonu, Mahmudkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04 |
| | | 15.01.2025, saat $15^{00}$, Şərur rayonu, Oğlanqala Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynov Ənvər Ələsgər oğlu, 060-416-95-10 |
| | | 21.01.2025, saat $15^{00}$, Şərur rayonu, Məmmədsabir Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası<br>28.01.2025, saat $15^{00}$, Şərur rayonu, Muğancıq-Mehrab Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfov Məhəmməd Ramazan oğlu, 060-310-07-06 |
| 10. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 27.01.2025, saat $15^{00}$, Şərur rayonu, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin binası | İsmayılova Mahı Arif qızı, 070-755-00-76 |
| 11. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 10.01.2025, saat $15^{00}$, Şərur rayonu, Aşağı Yaycı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Kərimova Tərifə Məmməd qızı, 050-719-85-39 |
| 12. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 23.01.2025, saat $15^{00}$, Şərur rayonu, İbadulla Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 13. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 24.01.2025, saat $15^{00}$, Şərur rayonu, Oğuzkənd və Aşağı Daşarx kənd sakinləri, Aşağı Daşarx Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Allahverdi İsa oğlu, 050-571-33-03 |
| 14. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 22.01.2025, saat $11^{00}$, Kəngərli rayonu, Qarabağlar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qəhrəmanov Ramil Fərhad oğlu, 060-285-00-15 |
| 15. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 16.01.2025, saat $11^{00}$, Kəngərli rayonu, Böyükdüz Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası<br>21.01.2025, saat $10^{30}$, Kəngərli rayonu, Şahtaxtı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası<br>23.01.2025, saat $10^{40}$, Kəngərli rayonu, Qıvraq Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Vəfa Elman qızı, 060-491-30-96 |
| 16. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 16.01.2025, saat $16^{00}$, Kəngərli rayonu, Çalxanqala Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası<br>30.01.2025, saat $16^{00}$, Kəngərli rayonu, Təzəkənd və Xıncab kənd sakinləri, Xıncab Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 17. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 22.01.2025, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 18. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 24.01.2025, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 19. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 17.01.2025, saat $10^{00}$, Babək şəhər sakinləri, Babək Rayon İcra Hakimiyyətinin inzibati binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 20. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 24.01.2025, saat $11^{00}$, Babək rayonu, Yarımca Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 21. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 15.01.2025, saat $15^{00}$, Babək rayonu, Kültəpə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 22. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 29.01.2025, saat $11^{00}$, Babək rayonu, Yuxarı Uzunoba Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası<br>29.01.2025, saat $14^{00}$, Babək rayonu, Aşağı Uzunoba Kənd Mərkəzi | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 23. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 24.01.2025, saat $11^{00}$, Babək rayonu, Cəhri Qəsəbə Uşaq Musiqi Məktəbinin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90 |
| 24. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 24.01.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, Tumbul Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 25. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 15.01.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası<br>29.01.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynli Bəhriyə Məzayıl qızı, 060-387-07-77, 036-550-08-29 |
| 26. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 22.01.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 11 saylı tam orta məktəbin binası | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13 |
| 27. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 17.01.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 5 saylı Mənzil İstismar İdarəsi | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 28. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 21.01.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 8 nömrəli tam orta məktəbin binası<br>29.01.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 12 nömrəli tam orta məktəbin binası | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 29. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 28.01.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 3 nömrəli tam orta məktəbin binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 30. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 22.01.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, A.Cəlilov adına 12 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 31. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 31.01.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, Xətai məhəlləsinin sakinləri, 17 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 32. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 18.01.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 4-cü məhəllə sakinləri, səyyar qəbul<br>25.01.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 59-cu məhəllə sakinləri, səyyar qəbul<br>31.01.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, Əcəmi məhəlləsi, Əliabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 33. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 27.01.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, İ.Səfərli adına 1 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 34. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 28.01.2025, saat $11^{00}$, Şahbuz rayonu, Şahbuzkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 35. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 23.01.2025, saat $11^{00}$, Şahbuz rayonu, Ağbulaq Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Adilzadə Adil Azər oğlu, 060-307-07-37 |
| 36. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 23.01.2025, saat $16^{00}$, Şahbuz rayonu, Türkeş Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 37. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 23.01.2025, saat $10^{00}$, Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 060-469-08-69, 077-569-43-65 |
| 38. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 17.01.2025, saat $15^{00}$, Culfa rayonu, Gülüstan Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əliyev Əli Şəmsəddin oğlu, 050-740-20-27<br>Canbaxşiyev Səməd Canbağış oğlu 060-252-15-19 |
| 39. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 16.01.2025, saat $11^{00}$, Culfa rayonu, Bənəniyar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 40. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 14.01.2025, saat $10^{00}$, Culfa rayonu, Qazançı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası<br>21.01.2025, saat $10^{00}$, Culfa rayonu, Əlincə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Gözəlov Zəkəriyyə Tahir oğlu, 060-289-61-62, 050-289-61-62 |
| 41. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 16.01.2025, 30.01.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 42. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 09.01.2025, 23.01.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>14.01.2025, saat $15^{00}$, Ordubad rayonu, Kotam Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 43. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 17.01.2025, saat $15^{00}$, Ordubad rayonu, Vənənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01, 557-37-59 |
| 44. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 07.01.2025, saat $15^{00}$, Ordubad rayonu, Üstüpü kənd tam orta məktəbinin binası<br>14.01.2025, saat $15^{00}$, Ordubad rayonu, Dəstə kənd tam orta məktəbinin binası | Səfərov Vüsal Ramiz oğlu, 060-487-57-47 |
| 45. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 11.01.2025, saat $12^{00}$, Ordubad rayonu, Baş Dizə Kənd Mərkəzi<br>11.01.2025, saat $15^{00}$, Ordubad rayonu, Darkənd sakinləri, Aza kənd tam orta məktəbinin binası | Əhmədov Suat Yusif oğlu, 060-200-09-30 |

# “Hər şey yaxşı olacaq”



*Matəm günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında bütün bayraqlar yarıya endirilib.*

## Naxçıvan Muxtar Respublikasında sükut anı



AZAL-a məxsus təyyarənin Aktau yaxınlığında qəzaya düşməsi nəticəsində çoxsaylı insan itkisi səbəbindən dekabrın 26-sı Azərbaycanda matəm günü elan edildi. Naxçıvan Muxtar Respublikasında təyyarə qəzasında həlak olanların xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Ölkə ərazisində olduğu kimi, muxtar respublikada da saat $12^{00}$-da bədbəxt hadisədə həyatını itirən vətəndaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, nəqliyyat vasitələrinin və piyadaların hərəkəti dayandırılıb, avtomobillərdən və qatarlardan səs siqnalları verilib. Hüzn əlaməti olaraq dövlət bayraqları yarıya endirilib.

## Naxçıvan məktəblərində təyyarə qəzasında həlak olanlarla bağlı guşələr yaradılıb



Dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən “Embraer 190” tipli sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olanların xatirəsinə ehtiram əlaməti olaraq Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində guşələr yaradılıb.

# Səmanın mələkləri



*Dekabrın 25-də Azərbaycan Hava Yollarına məxsus J2-8243 reysi ilə uçan “Embraer 190” təyyarəsi Qazaxıstanın Aktau şəhəri yaxınlığında baş verən dəhşətli qəza ilə xalqın yaddaşına həkk olundu. Bu qəza yalnız itkilər və kədər deyil, eyni zamanda insanlıq və qəhrəmanlıq hekayələrini də özündə birləşdirdi. Təyyarənin ekipaj üzvləri həmin faciəli anlarda sərnişinlərin həyatını xilas etmək üçün son ana qədər fədakarlıq göstərdilər.*

*Qəza baş verən anda pilotların qarşısında yalnız iki yol vardı: ya vəziyyəti qəbul etmək, ya da hər şeyin sonuna qədər mübarizə aparmaq. Onlar ikinci yolu seçdilər. Təyyarənin nəzarəti itirilmişdi, amma pilotların qəlbində insanları qorumaq iradəsi çox güclü idi; bu iradə yer üzünün əşrəfi olanları öz ünvanına oradan götürdüyü kimi qaytarmaq istəyirdi.*

*Qəza anında hər kəsin beynindən yalnız bir fikir keçirdi: “Sağ qalmaq”. O kabində oturan qəhrəmanlar da bunu fikirləşirdilər. Pilotlar alternativ qərarlar verməli idilər, elə bir qərar ki bir insan həyatının yükünü daşıya bilsin. Təsəvvür edin, təyyarədəki təlaşın içində o iki insan necə sakit qalmağa çalışırdı. Təsəvvür edin, dumanlı göylərdə bir ümid işığı axtararkən onların beyinləri necə işləyirdi. Onlar qorxuya məğlub olmadılar, sona qədər mübarizə apardılar. Pilotlar öz həyatlarını riskə ataraq sərnişinləri ən az zərbə ilə yerə endirmək üçün hər şeyi etdilər.*

*Uçuş heyəti – kapitan, ikinci pilot, stüard və stüardessalara səmada təhlükəsiz uçmaq üçün gecə-gündüz çalışan, adları çox vaxt yaddaşlarda qalmayan qəhrəmanlardır. Bu uçuşda da ekipaj üzvləri öz borclarını ən yüksək səviyyədə yerinə yetirməyə çalışdılar... Və bacardılar...*

*Kapitanın soyuqqanlı davranışı, ekipajın təcrübəsi və canı bahasına sərnişinlərə yardım etmək üçün göstərdiyi cəhdlər faciənin daha böyük miqyas almasının qarşısına sipər çəkdi. Qəzadan sağ çıxan sərnişinlərin sözlərinə görə, ekipaj üzvləri təyyarədə nizam-intizamı qorumaq, sərnişinləri sakitləşdirmək və təhlükəsizlik tədbirlərini həyata keçirmək üçün son ana qədər əllərindən gələni etdilər. Ekipaj üzvü stüardessa Hökumə Əliyevanı gözləriniz önünə gətirin. Artıq bir neçə gündür ki, sosial şəbəkələrdə, televiziya kanallarında, hər kəsin qulağında bir səs təkrarlanır: “Hamı kəmərlərini bağlasın, hörmətli sərnişinlər. Təlimata uyğun hə... hərəkət edin. Hər şey yaxşı olacaq. Hamı əyləşsin, kəmərini bağlasın. Dəhlizdə durmayın. Təhlükəlidir”. Bu səs Hökumənin səsidir. Cəsarətin, peşəkarlığın və insanlığa sədaqətin simvolu Hökumənin. Səs yazılarından görürük ki, o insanların təhlükəsizliyi üçün son dəfə vəzifə borcunu peşəkarlıqla yerinə yetirməyə çalışdı. O hər kəsə göstərdi ki, Azərbaycan qadını məhz onun timsalında olanlardır! O yalnız qadın deyil, həm də Vətəndir, əsl vətəndaşdır!*

*O artıq bilirdi ki, bu onun təyyarədə son uçuşudur. Bir daha əynində qürurla daşıdığı narıncı pencəyini geyinməyəcək, hiss edirdi ki, bu eniş onların son enişi olacaq. Hər peşə qəhrəmanlıq tələb etmir, amma bəzən elə peşələr var ki, insanı qəhrəman edir. Hökumə Əliyeva o qəhrəmanlardan biri oldu. Göylər onu apardı, amma xatirəsi yerdə əbədi yaşamağa davam edəcək. Rahat yat, səmanın mələyi. Rahat yat, Hökumə Əliyeva.*

*Xalqımızın ürəyinə dağ çəkən bu qəza bizə onu göstərdi ki, ekipaj üzvləri, sadəcə, texniki vəzifə daşıyan şəxslər deyil, onlar səmanın qəhrəmanlarıdır.*

*Qəzada həyatını itirən ekipaj üzvlərinin adları xalqın yaddaşına həkk olundu. Onlar bir təyyarənin deyil, insanların həyatı üçün döyüşən əsl qəhrəmanlardır.*

*Bu qəza həm itki, həm də fədakarlığın zirvəsini göstərən bir hadisədir. Qəzada həyatını itirən ekipaj üzvlərini və sərnişinləri hörmətlə yad edərək onların qəhrəmanlıq hekayələrini gələcək nəsillərə ötürəcəyik. Onların əməyi, şücaəti və göstərdikləri iradə həmişə yaddaşımızda qalacaq. Hər birimiz şahid olduq ki, onlar, sadəcə, uçmadılar, onlar insanlıq üçün qanad açdılar. Ekipaj üzvü olaraq səmaya uçub, göy üzünün qəhrəmanları kimi yerə endilər. Artıq biz hər dəfə səmanı seyr edəndə onların orada olduğunu hiss edəcəyik. Biz hər dəfə bir təyyarənin qalxmasını və ya enməsini gördükdə onları xatırlayacağıq. Rahat yatın səmanın mələkləri. Rahat yatın göylərin mübariz əsgərləri! Sizin şücaətinizlə göylər daha da ucaldı!*

*P.S. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli Sərəncamı ilə baş vermiş qəza zamanı xidməti vəzifələrinin yerinə yetirilməsində, sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq, şücaət və fədakarlıq göstərdiklərinə görə təyyarənin qəzada vəfat edən pilotları Kşnyakin İqor İvanoviç, Kalyaninov Aleksandr Georgiyeviç və bələdçisi Əliyeva Hökumə Cəlil qızı “Azərbaycanın Milli Qəhrəmanı” adı ilə, digər iki bələdçi – Əsədov Zülfiqar Sərdar oğlu və Rəhimli Aydan Vaqif qızı isə 1-ci dərəcəli “Rəşadət” ordeni ilə təltif edilib.*

**Aygün RÜSTƏMOVA**



# Göylərdə ümid dolu səs

*Bir neçə gündür, qulağımızda bir səsin əks-sədası var. Labüd ölümdən qorxmayaraq insanların təşvişinə son qoymaq üçün həyəcan dolu səs: “Hamı sakit olsun... Hər şey yaxşı olacaq!..” Bu səsin həyəcanla yanaşı, peşəkarlığını da duyduq. “Ümidlər sonda ölür”, – deyə düşünürdü o insan. Bəli, günlərdir ki, bu titrək səsin sədası ilə layla deyirik səmalarda sonsuzluq dövrəsi vuran pilotlarımıza və dünyasını dəyişənlərə...*

*O qadın və pilotlar özlərindən sonra dərin bir iz qoydular, izi silməmək üçün!.. Onlar bizim qəhrəmanımız, səmalardakı ümid səsimiz, yerə çatanda nur saçan Günəşimiz oldular. Yerdə də ümid axtardılar dövrə vuraraq. Lakin biz onları səmalarda xatırlayacağıq. Qəhrəman xanım Hökumə Əliyevanın dediyi kimi, hər şeyin yaxşı olacağını sərnişinlər onsuz da gözləmirdilər, bu təsəlli ilə də dünyalarını dəyişdilər. O, sərnişinlərə yalan deməmişdi. Sadəcə, buludların arasında onları ümidə bələmişdi. 13 yaşlı Məhəmmədəlinin yeni ilə yeni arzularla gedə bilmədiyi körpə ürəyinin döyüntüsünü də duyduq. Duyduğumuz andan da qəlbimiz ağrıdı. Hər kəs onun ana, ata harayını qəlbinin dərinliyində hiss etdi.*

*Hamımızı iliyinə kimi sarsıdan bu faciə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncamla ölkəmizdə birgünlük matəmlə anıldı. Xalqımız matəmin fonunda yenə o səsi duydu, “Hamı sakit olsun... Hər şey yaxşı olacaq!..”*

*Cənnətləri səma, səmaları qorxu dolu olan qəhrəmanlarımız... Onların qorxu, həyəcan dolu səsləri hər birimizi sükuta qərq etdi. Qəlbimiz qan ağlasa da, hamımız sakit olduq... Arzu dolu səmalara ucalan ruhlar rahat uyusun deyə sakit olduq...*

*Taleyimizə yazılmış bu faciə xalq olaraq bizi dərin hüznlə sarsıtdı. Sona çatmış həyatlar, yarım qalmış arzular kədər ağacının kölgəsində uyudu.*

*Başımız sağ, səmalarımız aydın olsun!*

**Aidə İBRAHİMOVA**



*Dövlət Proqramı icra olunur*

# Tarixin 2024-cü ili:

## muxtar respublikanın iqtisadi və mədəni həyatında yeni mərhələ

Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu siyasi xətti uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəmizin bütün bölgələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının inkişafına da xüsusi diqqətlə yanaşır, diyarın tərəqqisinin dayanıqlılığının artırılması, davamlılığının təmin edilməsi məqsədilə mütərəqqi addımlar atılır, sərəncam və fərmanlar imzalanır. 2022-ci ilin sonundan etibarən Naxçıvanın dövlət idarəçiliyi sistemində edilən dəyişiklikdən sonra muxtar respublikada bütün sahələr üzrə reallaşdırılan infrastruktur quruculuğu, şəhər və kəndlərin abadlaşdırılması istiqamətində müvafiq işlər kəmiyyət və keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Bu baxımdan dövlət başçısının 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" məxsusi yerə və rola malikdir. Başqa sözlə, Dövlət Proqramı müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsini, inkişaf konsepsiyasını müəyyənləşdirir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" yeni mərhələdə müəyyən vəzifələrin reallaşdırılmasını, prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrini, regionun sosial-iqtisadi inkişafı sahəsində əldə olunacaq hədəf göstəricilərini özündə ehtiva edir. Bu sənəd, ümumilikdə, iqtisadiyyatın inkişafı, o cümlədən əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatı məhsulları istehsalının və emalının, turizmin, sosial sektorun, insan kapitalının və infrastruktur təminatının inkişafı, elektrik enerjisi istehsalının artırılması, institusional inkişaf, ətraf mühitin mühafizəsinin gücləndirilməsi kimi 11 prioritet istiqamət üzrə fəaliyyətlərin dəstəklənməsini nəzərdə tutur. Dövlət Proqramının icrası ilə yaxın gələcəkdə Naxçıvanın azad iqtisadi zonaya çevrilməsi, burada fəaliyyət göstərən şirkətlər üçün vergi və gömrük güzəştləri, daşıma və digər sahələrdə müvafiq stimullaşdırma tətbiq edilməsi əsas məqsədlərdəndir. Eyni zamanda "yaşıl enerji" potensialından istifadə, o cümlədən günəş və külək elektrik stansiyalarının inşası istiqamətində böyük layihələrin icrası da planlaşdırılıb.

Dövlət Proqramının icrası çərçivəsində yol infrastrukturunun yenidən qurulması, müasir yolların çəkilməsi məxsusi yerdə dayanır. Bu məqsədlə 2024-cü ildə "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinin, Culfa şəhərdaxili, Culfa rayonu Darıdağ Arsenli Su Müalicə Mərkəzi və Naxçıvan şəhəri 6-cı küçənin avtomobil yolları əsaslı təmir edilib. Muxtar respublikanın 100 illik yubileyinin geniş şəkildə qeyd olunması ilə əlamətdar olan bir ildə ən mühüm tarixi-mədəni hadisələrdən biri, təbii ki, fevralın 21-də Prezident cənab İlham Əliyevin Sərəncamına əsasən Ordubad Tarix-Memarlıq Qoruğunun ərazisinin "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilməsidir. Sərəncama uyğun olaraq qoruğun sərhədləri və mühafizə zonasının, qoruğun ərazisinin xüsusi rejimi ilə bağlı təkliflərin hazırlanması ilə əlaqədar komissiya yaradılıb, Ordubad şəhərinin yerquruluşu planı və şəhərin ünvan xəritəsi əsasında qoruğun sərhədləri 2 400 693 kvadratmetr müəyyən edilib. Qoruğun mühafizə zonasının uzunluğu 9,79 kilometr, ərazisi 11,81 hektarda qərarlaşdırılıb. "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun mühafizə zonası ilə birlikdə ümumi sahəsi 2518710 kvadratmetr (251,87 hektar) təşkil edib. Eyni zamanda muxtar respublikada tarixi abidələrin mövcud vəziyyətini dəyərləndirmək üçün, həmçinin aparılacaq təmir-bərpa işləri ilə bağlı görüşlər keçirilib, fikir mübadilələri aparılıb. Dekabr ayında bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi, Möminə xatın türbəsinin bərpası və ərazinin abadlaşdırılması ilə bağlı layihələndirmə işlərinin aparılması məqsədilə müqavilə bağlanmış Avstriyanın "Atelier Erich Pummer GmbH" şirkətinin rəhbəri Erich Pummer və şirkətin Azərbaycan Respublikasındakı nümayəndəsi Çingiz Neymanzadə ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində görüş keçirilib. Görüş zamanı abidənin restavrasiyasına dair müvafiq işlərin yerinə yetirilməsi, qədimliyin qorunub saxlanılması müzakirə edilib, türbənin ilkin formaya uyğun bərpa ediləcəyi və interyerinin tədqiqinə dair uyğun materialın müəyyənləşməli olduğu diqqətə çatdırılıb, bütün hallarda işin gedişi zamanı yerli alim və mütəxəssislərin də rəylərinin alınacağı vurğulanıb.

2024-cü ildə Dövlət Proqramının icrasına dair diqqətçəkən məqamlardan biri də Naxçıvan Dövlət Universitetində tibb təhsili üzrə peşəkar kadrların hazırlanması məqsədilə ölkəmizin ali təhsil sisteminin ən mütərəqqi layihəsi olan SABAH qrupunun yaradılmasıdır. Ali təhsil ocağının Tibb fakültəsinin maddi-texniki bazasının yüksək səviyyədə olması, fakültənin peşəkar professor-müəllim heyəti, universitet xəstəxanasının mövcudluğu, muxtar respublikanın bütün xəstəxanalarından tədris bazası kimi istifadə imkanları qısa zamanda Tibb ixtisasının SABAH qrupu ixtisasları içərisində ilk sıralarda qərarlaşmasına şərait yaradacaq. Həmin qruplarda təhsil alan tələbələr üçün yeni, mütərəqqi tədris metodlarının tətbiqi və onların tədqiqat üsullarının genişləndirilməsi sayəsində həm tədqiqatçı, həm araşdırmaçı, həm də yüksəkixtisaslı tibbi kadrların yetişdirilməsinə nail olunacaq.

Başa vurmaqda olduğumuz ilin ən yaddaqalan hadisələrindən biri də ölkə Prezidenti cənab İlham Əliyevin dekabrın 5-də imzaladığı Fərmana əsasən Naxçıvanda Sənaye Parkının yaradılmasıdır. Yeni park sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazi funksiyasını daşıyacaq. Fərmana uyğun olaraq parkın fəaliyyəti üçün Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda 310 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin ayrılması nəzərdə tutulur. Bu xüsusda onu da vurğulamaq yerinə düşər ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da muxtar respublikada Sənaye Parkının yaradılması ilə sənayeləşmənin inkişafına təkan verilməsi əsas məqsədlər sırasındadır. Proqramda qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasında dövlət sənaye sahəsinin inkişafını dəstəkləyən infrastrukturun yaradılması aktiv iştirak edəcək, muxtar respublikada Sənaye Parkı yaradılacaq, istehsal olunan sənaye məhsullarının xarici bazarlara ixracı stimullaşdırılacaq, ixrac potensialının artırılmasına töhfə verən rəqabətqabiliyyətli sənaye sahələrinə dövlət dəstəyi və investisiyalar cəlb olunacaq, innovasiyalar, habelə dövlət-özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatı gücləndiriləcək. Əminliklə demək olar ki, Sənaye Parkının yaradılması ilə Naxçıvan Muxtar Respublikasında mövcud müəssisələrin istehsal potensialının artırılması, məhsulların həm ölkədaxili satışının dəstəklənməsi, həm də xarici bazarlara çıxışının artırılması prosesinə təkan veriləcək. Bununla yanaşı, mövcud olan təbii ehtiyatlar və xammal bazası əsasında yeni sənaye sahələrinin yaradılması imkanları genişləndiriləcək.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan hədəflər sırasında muxtar respublikanın "yaşıl enerji zonası" kimi mövcud potensialından istifadə və gələcəkdə "yaşıl enerji" ixracının təmin olunması da yer alıb. Proqrama əsasən alternativ və bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi, dövlət-özəl tərəfdaşlığı ilə yeni enerji layihələrinin həyata keçirilməsi nəzərdə tutulur. Bu xüsusda ölkə başçısının dekabrın 23-də Naxçıvan Muxtar Respublikasında yeni istilik elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncamı muxtar respublikanın enerji potensialı hesabına iqtisadi inkişafının gücləndirilməsi baxımından mühüm addımdır. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti rəisinin müavini Tural Murtuzəliyevin "Şərq qapısı"na verdiyi açıqlamaya görə, yeni istilik elektrik stansiyasının tikilməsi muxtar respublikanın enerji sisteminin sabitliyinə, davamlılığına güclü təkan verəcək. Ən əsası isə alternativ və bərpa olunan enerji mənbələrində istehsal olunan enerji üçün balans rolunu oynayacaq. Bu da ciddi ixrac potensialının istifadə olunmasına ən böyük dəstəkdir. Ümumilikdə, onu vurğulamaq yerinə düşər ki, Dövlət Proqramında qarşıya qoyulan hədəf kimi, Naxçıvanın "yaşıl enerji" potensialının gücləndirilməsinin nəticəsidir ki, bu ilin yanvar-noyabr aylarında "yaşıl enerji" istehsalında, təxminən, 20 faiz artım əldə olunub. Belə ki, 2023-cü ilin 11 ayında 438 milyon kilovat-saat enerji istehsal edilmişdirsə (34 faiz), 2024-cü ilin müvafiq dövründə bu istehsal 449 milyon kilovat-saata yüksəlib (51 faiz).

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2024-cü illər üçün Dövlət Proqramı" üzrə Təfsilatlı Tədbirlər Planında nəzərdə tutulan Naxçıvan şəhəri, Şərur, Babək və Ordubad rayonlarında Vergi ödəyicilərinə xidmət mərkəzlərinin istifadəyə verilməsi məqsədilə 2023-cü ildən başlayaraq 4 xidmət mərkəzi vaxtından əvvəl qurularaq vergi ödəyicilərinin və vətəndaşların istifadəsinə verilib. Muxtar respublika iqtisadiyyat nazirinin müavini Tapdıq Əliyev mətbuata açıqlama verərək bildirib ki, Təfsilatlı Tədbirlər Planına əsasən dövlət satınalmalarının vahid internet portalına inteqrasiyası, həmçinin Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətində dövlət əmlakının reyestr proqram təminatı qurularaq inteqrasiya gerçəkləşdirilib. Dövlət Proqramında nəzərdə tutulmuş Şərur Sənaye Məhəlləsinin sənədləşdirmə işləri də Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin sifarişi ilə başa çatmaq üzrədir.

Nazir müavini qeyd edib ki, ötən dövr ərzində kənd təsərrüfatı məhsullarının emalı üzrə müxtəlif təyinatlı müəssisələrin yaradılması təşviq edilib, 2024-cü ilin 11 ayı ərzində Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun və Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına kənd təsərrüfatı yönümlü və emalı təyinatlı 56 layihəyə 3 milyon manatdan çox dövlət maliyyə dəstəyi göstərilib. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli Sərəncamı ilə "İnvest in Nakhchivan" veb-səhifəsinin hazırlanması nəzərdə tutulub. Bu məqsədlə 2024-cü ilin ötən dövrü ərzində tender elan olunub, qalib müəyyən edilmiş "GUYS" MMC ilə 9 min 390 manat məbləğində satınalma müqaviləsi bağlanılıb və veb-səhifənin hazırlanması istiqamətində işlər başa çatmaq üzrədir.

Ümumilikdə, Dövlət Proqramının icrası muxtar respublikanın sosial-iqtisadi mənzərəsində müsbət dəyişikliklərə yol açıb, iqtisadiyyatın və sosial sahələrin inkişafına, rəqabətqabiliyyətli məhsul istehsalının artmasına, paralelində sərmaye kapitalının, maliyyə yatırımlarının çoxalmasına imkan verib. Belə ki, 2024-cü ilin yanvar-noyabr aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 140 milyon 358 min 300 manat vəsait yönəldilib ki, bu da bir il öncəki göstəricini 7,0 faiz üstələyib. İstifadə olunmuş vəsaitin 32 milyon 461 min 800 manatı və ya 23,1 faizi məhsul istehsalı sahələrinə, 29 milyon 233 min 300 manatı və ya 20,8 faizi xidmət sahələrinə, 78 milyon 663 min 200 manatı və ya 56,1 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala vəsait qoyuluşunun 116 milyon 27 min manatı və ya 82,7 faizi tikinti-quraşdırma işlərinin payına düşüb ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 9,0 faiz çoxdur.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2024-cü illər üçün Dövlət Proqramı"nı diqqətlə nəzərdən keçirəndə aydın olur ki, bu mühüm dövlət sənədi muxtar respublikanın potensial imkanlarından səmərəli istifadə ediləcək inkişafının təmin olunması baxımından vacib istiqamətləndirici mayak, fundamental hüquqi bazadır. Əminliklə demək olar ki, 2024-cü ildə Dövlət Proqramına əsasən qeyd edilən bu və digər tədbirlərin icrası, eləcə də 2025-ci ildə reallaşdırılması nəzərdə tutulan yeni layihələr Naxçıvanın müasir sosial-iqtisadi inkişafında, mədəni yüksəlişində müstəsna əhəmiyyət daşıyacaq.

**Nail ƏSGƏROV**



# Naxçıvan Muxtar Respublikasının 100 illiyi:
## milli dövlətçilik tarixinin möhtəşəm zirvəsi və strateji inkişaf perspektivləri



Naxçıvan Muxtar Respublikasının 100 illiyi təkcə tarixi bir yubiley deyil, həm də Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsidir. Bu səhifə müasir Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsində misilsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətinin dərin izlərini daşıyır. Ulu Öndər Heydər Əliyev 1990-cı illərin əvvəllərində Naxçıvanda göstərdiyi qətiyyətli siyasi iradə, düzgün strateji yanaşmalar və xalqla vahid ideya ətrafında birləşmək bacarığı sayəsində, blokada şəraitində belə Naxçıvanı milli dövlətçilik prinsipinə sadiq, suverenliyə dayaq olan bir məkana çevirdi.

**Əli ABBASOV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyi Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən geniş miqyasda qeyd edilir. Bu sənəd Naxçıvanın birəsrlik muxtariyyət tarixinin milli dövlətçilik irsimizlə və strateji hədəflərimizlə səsləşən elmi-nəzəri çərçivədə dəyərləndirilməsinə zəmin yaradır. Sərəncam Naxçıvanın keçdiyi yolu yalnız tarixi faktların xatırlanması ilə məhdudlaşdırmır, eyni zamanda bölgənin gələcək inkişaf strategiyalarının, iqtisadi-sosial potensialının və milli-ideoloji istiqamətlərinin sistemli şəkildə araşdırılmasına şərait yaradır.

Naxçıvan təkcə milli dövlətçiliyimizdə deyil, həm də coğrafi-strateji mövqeyinə görə Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır. Əsrlər boyu İpək Yolunun əsas qolunda yerləşən Naxçıvan, Şərq və Qərb arasında ticarət, mədəniyyət və elmi ideyaların axışdığı tranzit mərkəzi kimi tanınırdı. Bu coğrafi üstünlük müasir dövrdə də regionu müxtəlif nəqliyyat və logistika layihələrinin mərkəzinə çevirir, Naxçıvanı Orta Dəhlizin bir parçası etməklə onun geostrateji dəyərini daha da artırır.

Tarixən "Şərqin qapısı" adlandırılan Naxçıvan coğrafi baxımdan Türk-İslam mədəniyyətinin, millimənəvi dəyərlərimizin və intellektual düşüncəmizin əsrlər boyu inkişafına təkan verən bir məkan olmuşdur. Bu torpaq müxtəlif sivilizasiyaların mədəni və elmi nailiyyətlərinin qarşılıqlı təsirə məruz qaldığı, mədəniyyətlərin bir-birindən öyrəndiyi tarixi mühit formalaşdırmışdır.

Naxçıvan böyük ədiblərimiz Cəlil Məmmədquluzadə və Hüseyn Cavidin Vətəni kimi Azərbaycan mədəniyyətinin, ədəbiyyatının və maarifçilik ənənələrinin dəyərli qaynağıdır. Onların yaradıcılığı Naxçıvanın mədəni irsində mühüm yer tutur və regionun milli ruhunu daha da möhkəmləndirir.

Naxçıvan, həmçinin milli memarlıq tariximizdə dərin iz buraxan Memar Əcəminin vətənidir. Onun tərəqqi yaradıcılığı Mömünə xatın və Yusif Küseyir oğlu türbələri dünya memarlıq irsində Azərbaycan üslubunu tanıdan möhtəşəm abidələrdir. Bu sənət inciləri əsrlər sonra da milli-mədəni bələdçimiz olaraq Naxçıvanın mədəni kimliyinə xüsusi dəyər qatır, estetik düşüncəmizi zənginləşdirir.

Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda doğulması və milli ruhda formalaşması bu torpağın tarixində və dövlətçilik şüurunda dərin iz qoymuşdur. Məhz Naxçıvanın qədim kökləri, milli adətənənələri, zəngin mədəni irsi və vətənpərvərlik dəyərləri dahi şəxsiyyət Heydər Əliyevin siyasi müdrikliyinin bünövrəsində dayanır. Daha sonra Onun rəhbərliyi altında Azərbaycan müstəqilliyin qorunması, iqtisadi tərəqqi, siyasi sabitlik və beynəlxalq nüfuz qazanmaqla Naxçıvanın tarixi missiyasını dövlətçilik modelimizin əsas sütunlarından birinə çevirdi.

Müstəqilliyin bərpasından sonrakı ilkin mərhələdə ölkədəki hakimiyyətsizlik, erməni işğal planlarının genişlənməsi və iqtisadi-sosial kataklizmlər Naxçıvana da ciddi təsir göstərirdi. Lakin görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvanda nümayiş etdirdiyi siyasi qətiyyət, praqmatik yanaşmalar və milli ideyalara sadiqlik bölgəni milli müqavimətin avanqardına çevirdi. Bu dövrdə atılan addımlar milli suverenliyin əbədi qorunmasına, müstəqilliyin davamlılıq prinsipinin möhkəmlənməsinə və siyasi idarəetmənin keyfiyyətcə yeni mərhələyə çıxmasına zəmin yaratdı.

Prezident cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasəti Naxçıvan Muxtar Respublikasını son illərdə sosial-iqtisadi yüksəlişin, modern infrastrukturun formalaşdırılmasının və müasir idarəetmə modelinin tətbiqinin mərkəzinə çevirdi. Blokada şəraitinə baxmayaraq, Naxçıvan öz müdafiə potensialını artırdı, alternativ enerji mənbələrindən istifadəni genişləndirdi, kənd təsərrüfatı, turizm, təhsil və səhiyyə sahələrində yüksək göstəricilər əldə etdi. 44 günlük Vətən müharibəsindən sonra yaranan geosiyasi reallıqlar, Zəngəzur dəhlizinin açılması perspektivi Naxçıvanın regionda əsas nəqliyyat-logistika düyününə çevrilməsinə zəmin yaradır.

Naxçıvan Muxtar Respublikası təkcə tariximizin mirası deyil, eyni zamanda strateji inkişaf perspektivlərimizi və milli dövlətçiliyimizin əbədi varlığını simvolizə edən möhtəşəm bir məkandır. Bu torpaq qarşıdakı onilliklərdə də Azərbaycan dövlətçiliyinin parlaq simvolu olaraq qalacaq, milli suverenliyimizə, elmi-texnoloji tərəqqiyə və mədəni inteqrasiyaya arxa-dayaq təşkil edəcəkdir.

## 2024-cü ili böyük uğurlarla başa vururuq



Bu il Naxçıvan Muxtar Respublikasının da ictimai-siyasi həyatında əlamətdar hadisələrlə yadda qaldı. Yeni iqtisadi uğurların təməli atıldı. Belə ki, Prezident cənab İlham Əliyevin Naxçıvan Sənaye Parkının yaradılması haqqında Fərmanı, həmçinin Naxçıvanda yeni istilik elektrik stansiyasının tikilməsi haqqında Sərəncam imzalanması iqtisadiyyatın, energetikanın, sənayenin inkişafı üçün geniş imkanlar açacaq.

Əlbəttə ki, atılan bu məqsədyönlü addımlar Naxçıvanın iqtisadi həyatında yeni mərhələnin başlanğıcını təmin edəcək. Sənaye Parkının yaradılmasının Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında rolu ilə yanaşı, həmçinin strateji baxımdan da böyük üstünlükləri vardır. Onu da qeyd edim ki, Prezidentin bu Fərmanı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsinə geniş imkanlar yaradacaq və həmçinin proqram əsasında hazırlanan Tədbirlər Planında nəzərdə tutulan bir neçə prioritet istiqamət üzrə mühüm töhfə verəcək.

Yeni istilik elektrik stansiyasının tikilməsi muxtar respublikanın enerji sisteminin sabitliyinə, davamlılığına xidmət edəcək. Ən əsası isə alternativ və bərpa olunan enerji mənbələrində istehsal olunan enerji üçün balans rolunu oynayacaq. Bu da ciddi ixrac potensialının istifadə olunmasına mühüm stimuldur.

2024-cü il həm də növbəti illər üçün yeni iqtisadi perspektivlərə vəsilə oldu. Əminliklə demək olar ki, ölkə başçısının imzaladığı fərman və sərəncamların icrası ilə gələn il muxtar respublika iqtisadiyyatının inkişafı üçün geniş imkanlar açılacaq.

**Mahir İSMAYILOV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

## Naxçıvan təhsili yeni uğurlarla yadda qaldı



**Sevinc HƏSƏNOVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü yalnız tarixi təbliğ edən bir gün deyil, həm də gələcək nəsillərin qarşısında duran vəzifələri ifadə edir. Azərbaycan xalqı müstəqil və qüdrətli bir dövlət olaraq hər zaman birliyinə və milli maraqlarına sadiq qalmağı ilə tanınıb. Bu günün qeyd edilməsi Azərbaycanın gələcəkdə dünya miqyasında daha güclü bir mövqeyə sahib olacağına olan inamı möhkəmləndirir.

Azərbaycanın inkişafı və milli birliyin gücləndirilməsi daha çox əməkdaşlıq tələb edir. Diasporumuzun gücləndirilmiş fəaliyyəti sayəsində həmrəylik daha geniş bir çərçivəyə yayılacaq və Azərbaycan xalqının dünya səhnəsindəki təsiri artacaq. Bu baxımdan Azərbaycan dövləti intellektual, dünyagörüşlü, təhsilli gənclərin potensial imkanlarından faydalanmağı qarşıya vəzifə kimi qoyub. Bu məqsədlə elmin, təhsilin inkişaf etdirilməsi prioritet hədəflərdəndir. Vahid konsepsiya əsasında həyata keçirilən işlərin nəticəsidir ki, 2024-cü il həm də Azərbaycan təhsili üçün uğurlu oldu. Xüsusilə də işğaldan azad olunan torpaqlarımızda bütün sahələrlə yanaşı, təhsildə də dirçəliş prosesləri əhəmiyyətli dərəcədə nəzərə çarpdı. Prezident cənab İlham Əliyev uzun illərdən sonra qapılarını gənclərin üzünə açan Xankəndidəki Qarabağ Universitetinin açılışında iştirak etdi, müəllim və tələbələr üçün gələcək hədəfləri açıqladı. Başa vurduğumuz ildə Naxçıvan təhsili də yeni uğurlara imza atdı, şagirdlərimiz beynəlxalq yarışlarda, fənn olimpiadalarında nailiyyətlər əldə etdilər. Əminik ki, növbəti ildə qazandıqlarımız daha çox olacaq.

## 2024-cü il Naxçıvan mədəniyyəti üçün əlamətdar oldu



31 dekabr dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların birliyini və milli şüurunu təcəssüm etdirən bir gündür. Həmin gün Azərbaycan xalqının dünyanın istənilən yerində yaşayan nümayəndələrinin ölkəmizə və birliyimizə olan sadiqliyinin simvoludur. Bu əlamətdar gün həmrəylik və əməkdaşlıq ruhunu, Azərbaycan xalqının gücünü və milli birliyini dünyaya göstərmək məqsədi daşıyır.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edilməsi, yalnız ölkəmizin maraqlarının müdafiə edilməsi deyil, həm də Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin güclənməsinə xidmət edir. Azərbaycan diasporu fəaliyyət göstərdiyi ölkələrdə mədəniyyətimizi təbliğ edir, ölkəmizin imicini qoruyur və Azərbaycanın mövqeyinin beynəlxalq müstəvidə daha yaxşı təmsil olunmasına köməklik göstərir.

Ölkəmiz hər il olduğu kimi, bu il də birlik, həmrəylik bayramını yüksək əhvali-ruhiyyə, böyük uğurlarla qeyd edir. Arxada buraxdığımız 2024-cü il Naxçıvanın mədəniyyəti üçün də olduqca əlamətdar, yaddaqalan keçdi. Ən mühüm mədəni hadisələrdən biri, təbii ki, cari il fevralın 21-də Prezident cənab İlham Əliyevin Sərəncamına əsasən Ordubad Tarix-Memarlıq Qoruğunun ərazisinin "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilməsi oldu. İl ərzində Sərəncamın icrasına əsasən müvafiq işlər həyata keçirildi. O cümlədən muxtar respublikanın 100 illiyi ilə əlaqədar ölkəmizin bir sıra regionlarında, eləcə də Naxçıvanda silsilə tədbirlər reallaşdırıldı, tamaşalar hazırlandı, konsert proqramları təqdim olundu. İnanırıq ki, 2025-ci il də dövlətimiz, xalqımız üçün uğurlu olacaq. Hər bir həmvətənimizə yeni ildə uğurlar arzulayıram.

**Rza XUDİYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

## Bu il də bütün sahələrdə nailiyyətlər qazanılıb



Əvvəlki dövrdə olduğu kimi, 2024-cü ildə də ölkə başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə həmrəyliyimiz sayəsində Azərbaycanda bütün sahələrdə yeni nailiyyətlər əldə edildi. Cənab Prezident beynəlxalq tədbirlərdən ölkəmizin haqq səsini dünya ictimaiyyətinə çatdırdı. İlin ən böyük uğurlarından biri, heç şübhəsiz, COP29 kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsi idi. Həmin tədbir ərəfəsində bütün dünyanın ürəyi Azərbaycanla döyündü. Prezident cənab İlham Əliyevin konfrans qarşısında qoyduğu hədəflərə nail olundu. Xüsusilə də kiçik ada dövlətlərinin mövqeyinə uyğun qərarların qəbulu COP29-un məqsədinə çatdığını göstərdi. Bu il həm də muxtar respublikamızın 100 illik yubileyinin geniş şəkildə qeyd olunması ilə yadda qaldı. Növbəti ilimizin də uğurlu olacağına əminik. Hər bir azərbaycanlıya 2025-ci ildə də böyük nailiyyətlər arzulayıram.

**Rauf CƏFƏROV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*



# 100 ilin qəhrəmanları

***“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şahbuz rayonunun Nursu kəndindən olan şəhidimiz Niyamin Niftalızadənin  anası Zəminə Məhərrəmova, Şərur rayonunun Yengicə kəndindən olan şəhidimiz Məhəmməd İsmayılzadənin anası Miranə İsmayılova və Babək rayonunun Nehrəm qəsəbəsindən olan şəhidimiz Malik Əliyevin anası Məleykə Əliyevanın övladları haqqında xatirələri yer alıb.***

## Niyamin Xaliq oğlu Niftalızadə

*(15.01.1997-07.10.2020)*

### Vətəni namus, bayrağı şərəf bilən qəhrəman





Mənim üçün danışmaq çox çətindir. Niyamin nəsildə, demək olar ki, hamı tərəfindən sevilirdi. Çox ürəkli uşaq idi. O qədər təmiz ürəyi var idi ki... Səliqəsinə də söz ola bilməzdi. Hər yeriyəndə üst-başına baxardı. Həmişə deyirdi ki, mən seçiləcəyəm. Elə də oldu. Balam seçildi. Hər kəsdən fərqli oldu. Sanki bunu əvvəlcədən bilirmiş.

Xasiyyətində bir az da utancaqlıq vardı. Qonşular, qohumlar hələ də onun utancaqlığından danışırlar.

Oğlum həm də sakittəbiətli, böyük-kiçik yeri bilən oğlan idi. Çox zəhmətkeş bala olub. Evin bütün işlərində bizə dəstək idi. Zəhmətdən qorxmurdu.

Onun bir sözü vardı. “Vətəni namus, bayrağı şərəf, şəhadəti mükafat bilən ölümlə qorxudulanmaz”. Bəli, elə də oldu.



Mənim igid balam Vətəni namus, bayrağı şərəf bildi. Şəhadət mükafatı aldı. Bununla da bizə qürur yaşatdı.

27 sentyabrda başlanan Vətən müharibəsinə deyə-gülə getdi. Elə bil, toya gedirdi oğlum. Qəhrəmancasına şəhid oldu. Niyaminin şəhid xəbərini oktyabrın 8-i verdilər. Əvvəl atası bilmişdi. Atasına deyiblər ki, Niyamin yaralanıb. Lakin atası həmin dəqiqə hiss etmişdi balamızın şəhid olmasını.

Niyamin 15 yanvarda doğulmuşdu. Ad gününə hazırlaşırdı. Deyirdi, ana, elə ad günü keçirəcəyəm ki, hamı mənim ad günümdə iştirak edəcək. Elə də oldu. Oktyabrın 7-si şəhid oldu. 2021-ci ilin 15 yanvarında ad gününü məzarı başında qeyd etdik. Dediyi kimi də oldu. Məzarının başında insanların sayı-hesabı yox idi. Dedim ki, oğul, arzuna çatdın.

Ürəyi arzularla dolu idi mənim balamın. Nə arzu edirdisə, hər birinə ölümündən sonra çatıb. İnanın ki, onun arzularını sonradan yaşayırıq.

Nə deyim ki, dərdim yüngülləşsin. Vətən sağ olsun!

## Məhəmməd Füzuli oğlu İsmayılzadə

*(10.06.1996-26.10.2020)*

### Arzuları yarımçıq qaldı





Nə deyim onun haqqında? Məhəmmədin xatirələri mənim qəlbimdən heç vaxt silinməz. Hər saniyə, hər an gözümün qarşısındadır. Məhəmməd mənim ilk oğul övladım idi. Həm də sonbeşiyim. O, Ulu Yaradanın mənə bəxş etdiyi cənnətim idi. Mən 24 il Rəbbimin mənə bəxş etdiyi cənnətdə yaşamışam.

Çox mehriban uşaq idi. Üzündən gülüş əskik olmazdı. Yalan danışmağı sevmirdi. Xarakteri üzünə yansımışdı.

Məhəmmədin ən böyük arzusu xaricdə təhsil almaq idi. Arzusuna çatmışdı. Məhəmməd heykəltaraş idi. Fitri istedadı vardı. Qabiliyyətinə söz yox idi.

Amma Vətən müharibəsinin başlaması onun arzularını yarımçıq qoydu. Könüllü yazılıb müharibəyə getdi. 21 sentyabrda cənab



Prezidentimizin səfərbərlik haqqında olan Sərəncamından sonra hərbi komissarlığa müraciət etdi.

27 sentyabrda çağırış vərəqəsi evə gəldi. Məhəmməd müharibəyə yollandı. Müharibədə olanda tez-tez danışırdıq. Deyirdim ki, Məhəmməd, qabağa getmə. Bilirdim ki, nə olur-olsun, o özünü irəli atacaq. Heç kimin ondan qabaqda getməsinə razı olmayacaq. Deyirdi ki, ana, narahat olma, hər şey Allahın yazısıdır.

Sonuncu dəfə danışanda 25 oktyabr səhər saat $8^{00}$ idi. Səsi çox narahat gəlirdi. Dedi ki, ana, telefonu atama verə bilərsən? Sonra atası ilə danışdı. Atasına deyib ki, bərk yerdə ilişmişik. Çoxlu dua edin. Dostlarım yaralanıb. Dostlarını çıxartdıqdan sonra yenidən döyüşə giriblər. Həmin döyüşdə də şəhid olub.

26 oktyabr 2020-ci il. Heç vaxt sevmədiyim tarix. Oğlumun şəhid olduğu tarix. Bu tarix mənim öldüyüm, nəfəs almağa məcbur olduğum tarixdir. Bu tarix məni bala dərdi ilə Allahın sınağa çəkdiyi gündür. Bu tarix mənim imtahana çəkildiyim gündür.

Məhəmməd gedən gündən bütün həyatımız dəyişdi. O gözəl günlərimiz mənasız, ümidsiz, Məhəmmədsiz günlərə çevrildi. Allah Məhəmmədin və bütün şəhidlərimizin ruhunu şad etsin!

## Malik Təvəkkül oğlu Əliyev

*(26.12.1986-13.10.2020)*

### Qəhrəman oğul böyütdüyüm üçün qürurluyam





Malik balaca vaxtı o qədər ağırtəbiətli uşaq idi ki... İndi dönüb geriyə baxanda görürəm ki, həqiqətən də, belə imiş.

Naxçıvan şəhərindəki 5 nömrəli tam orta məktəbdə təhsil almışdı. İstər məktəbdə, istərsə də məhəllədə oğlum çox sevilirdi. İnanın ki, hər kəsə gücü çatdığı qədər kömək etməyə çalışardı. Kiminsə qəlbinə dəyməyini də eşitmədik.

Malik çalışdığı işində, xidmətində də belə olub. Xudatda işləyən zaman dostları deyirdilər ki, ən çətin tərbiyə olunanları Malikin komandanlığına verirlər. Çünki Malik həm səbirli idi, həm də heç kimin xətrinə dəyməzdi. Yanındakı əsgərlərə öz övladı, qardaşı kimi davranardı.

Malik həm də çox həssas idi. Xocalı faciəsi ona çox təsir etmişdi. O vaxt Malik başa düşürdü o faciəni. Deyirdi ki, ana, mən o günləri unuda bilmirəm.

Tez-tez təlimlərə gedirdi. Amma bizə demirdi. Elə deyirdi ki, elə bil, istirahətdədirlər. Bir gün soruşdum ki, Malik, səni də kəşfiyyatçı kimi döyüş bölgələrinə göndərirlər? Dönüb mənə birtəhər baxdı. Cavab verdi ki, ana, Xocalı boyda faciəsi olan xalqın anasına bu sözlər yaraşmır.

Malik Aprel döyüşlərində də iştirak etmişdi. Çox sevinirdi ki, qisasımızı alacağıq. Həmin döyüşlər dayanandan sonra özünə qapanmışdı. Deyirdi, qisasımızı ala bilmədik.

Şəhid balamın səs yazıları da qalır. Deyir ki, mən itirilmiş torpaqlarımızı yad əllərdə qoyub ölmək istəmirəm.

Oğlum müharibə ilə bağlı mesajlar verirdi. Mən onların heç birini başa düşmürdüm. Müharibə vaxtı evə gəlmişdi. Bacısının uşaqlarının başını sığallayırdı, əzizləyirdi. Deyirdi ki, siz gələcəkdə bütöv Azərbaycanda yaşayacaqsınız. Elə də oldu.

İş yoldaşları bizə tez-tez gəlirlər. Malikdən saatlarla danışırlar. Heyrət edirəm. Həm də çox qürurluyam. Belə igid, qəhrəman oğul böyütdüyüm üçün özümü xoşbəxt sayıram. Bütün şəhid analarına səbir diləyirəm.

Düzdür, ana üçün ən çəkilməz dərddir bala dərdi.



Hələ bir də o balanın körpə övladları ola. Böyük yaradır. Amma suveren bir Azərbaycan görmək üçün alışıb yanan oğlun anası olmaq çox qürurludur. Vətəni azad edən balaların ruhu şad olsun! Yaşasın Azərbaycan!



## Milli Müdafiə Universiteti “Şərq qapısı” qəzetinə məktub ünvanlayıb

Milli Müdafiə Universiteti “Şərq qapısı” qəzetinə məktub ünvanlayıb. Məktubda deyilir:

“Hörmətli Sara xanım,

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində 8 Noyabr – Zəfər Günü münasibətilə təşkil edilən tədbirlərə göstərdiyiniz informasiya dəstəyi tərəfimizdən təqdir olunur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yeni mərhələdə inamla və uğurla davam etdirdiyi milli müdafiə siyasətinin reallaşdırılması, habelə hərbi təhsilin təşviq olunması istiqamətində həyata keçirilən fəaliyyətlərdə kütləvi informasiya vasitələrinin yeri və rolu olduqca önəmlidir.

Əməkdaşlığımızdan məmnun olduğumuzu bildirir və Sizə təşəkkür edirik”.

**Hörmətlə,**
**Milli Müdafiə Universitetinin rektoru, general-mayor**
**Gündüz Əbdülov**

# “Şərq qapısı” qəzeti ili necə başa vurur?




Səhər iş masanıza sizdən öncə yetişən, fədakar, yorulmaz əməyin bəhrəsi olan 103 yaşlı qocaman qəzetimizdən bəhs edəcəyəm bu yazıda. Daha doğrusu, qəzetimizin builki uğurlarından… Hər kəsə məlumdur ki, 2024-cü ildə “Şərq qapısı” qəzeti ən yüksək inkişaf dövrünü yaşadı. Ən böyük uğuru isə Azərbaycan Respublikası Prezidentinin “Media haqqında” Qanuna dəyişikliyin təsdiq edilməsi haqqında 1 may 2024-cü il tarixdə imzaladığı Qanuna əsasən “Şərq qapısı” qəzetinin rəsmi təsisçilik hüquqlarının müvafiq qanunda təsbit olunması idi. Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin “Şərq qapısı” qəzetinin təsisçisi statusu təsdiqləndi.

Böyük qürur hissi yaşadan digər bir məqam isə bu ilin oktyabr ayında doğma qəzetimizin Medianın İnkişafı Agentliyinin Media Reyestrindən keçməsi oldu. Qəzetin reyestrdən keçməsi ilə bağlı şəhadətnamə qəzetə təqdim olundu. Bu isə o deməkdir ki, qəzet əməkdaşları üçün müxtəlif güzəştlər tətbiq edilə, həmçinin qəzetin inkişafı naminə müəyyən inkişaf layihələri ayrılıdqda istinad olunan bir subyekt ola bilər.

Bildiyiniz kimi, sentyabrın 1-dən etibarən qəzetin yeni saytı istifadəyə verildi. Beləliklə, “Şərq qapısı” qəzetinin oxucuları üçün informasiya əldə etmək, bir-birindən maraqlı məqalələr oxumaq daha əlçatan oldu. Bu il, eyni zamanda qəzetin yeni loqosu hazırlanaraq qəbul edildi. Azərbaycanın müstəqil mətbuatında özünəməxsus yeri və rolu olan qəzet müasir dünyamızın tələbləri ilə ayaqlaşmaqda və tərəqqi yolunu tutmaqda davam edir. Belə ki, qəzetimiz artıq oxucularının qarşısına ən müasir dizaynda çıxır. Nəfis tərtibatı ilə diqqətçəkən qəzet yenilənmiş sərlövhəsi ilə yanaşı, həm də oxucu auditoriyasının maraqlarına cavab verən sosial araşdırmaları, siyasi-analitik yazıları, iqtisadi təhlilləri, idman xəbərləri və digər sahələri əhatə edən şərhləri, fotosüjetləri ilə də öz inkişaf yolunu uğurla davam etdirməkdədir.

Qəzetin digər uğurlarından biri də muxtar respublikanın 100 illiyi ilə əlaqədar 9 fevral tarixdə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında keçirilən tədbirdə “Şərq qapısı” qəzetinin hazırladığı “Naxçıvan fotolarda” fotosərgisinin təqdim olunması idi. İctimai xadimlərin, ziyalıların, elm adamlarının iştirak etdiyi tədbirdə heyrətamiz panoramlı mənzərələr böyük diqqət və marağa səbəb oldu.

Yaddaqalan digər uğurlarımızdan biri də aprel ayının 15-də Beynəlxalq Muğam Mərkəzində “Naxçıvan fotolarda” fotosərgisinin təqdim olunması idi. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və “Şərq qapısı” qəzetinin birgə təşkilatçılığı ilə baş tutan sərgi ilə tanışlıq hər kəsdə xoş əhval-ruhiyyə yaratdı.

Bu ilin 16-17 mart tarixlərində Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu, İğdır Valiliyi və İğdır Azərbaycan Evinin birgə təşkilatçılığı ilə İğdır şəhərində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyi münasibətilə “Şərq qapısı” qəzeti tərəfindən hazırlanan “Naxçıvan fotolarda” sərgisi təqdim olundu. Sərgidə “Şərq qapısı” qəzetinin fotoqrafları Əli Xudiyev, Əsəd Səfərov və Zülfüqar Qurbanlının Naxçıvanı tərənnüm edən fotoları böyük marağa səbəb oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2023-cü il 30 dekabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq qəzetdə “100 ilin qəhrəmanları” layihəsi həyata keçirildi. Layihəyə uyğun olaraq müqəddəs Vətən yolunda şəhidlik zirvəsinə çatan Naxçıvan Muxtar Respublikasından olan Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr edilən yazılar dərc olundu. Şəhid analarının övladlarının xatirələri haqqında danışdığı 44 cümləlik hekayələr “100 ilin qəhrəmanları” adlı ilə kitabda öz əksini tapdı. Dekabrın 20-də kitabın təqdimat mərasimi keçirildi.

Aprel ayında “Şərq qapısı” qəzeti “Naxçıvan 100 ildə” adlı yaradıcılıq müsabiqəsi elan edib. Müsabiqə muxtar respublikanın 100 illik tarixinə nəzər salmaq, bu sahədəki yaradıcılıq fəaliyyətinə dəstək vermək, iştirakçıların bacarıqlarını və ideyalarını üzə çıxarmaq, Naxçıvanın tarixini və müasir inkişafını yaşatmaq idi. Müsabiqənin yekun tədbiri iyul ayında keçirildi və qaliblər mükafatlandırıldı.

Bu il COP29 tədbirinin ölkəmizdə keçirilməsi ilə əlaqədar qəzetin bu istiqamətdəki uğurlu fəaliyyətinə görə Medianın İnkişafı Agentliyi tərəfindən “Şərq qapısı”



“Green Certificate”a layiq görülüb. COP29-la bağlı qəzetdə və onun internet resurslarında, ümumilikdə, 1000-ə yaxın material dərc olunub ki, bu materialların 100-dən çoxu qəzet əməkdaşlarının hazırladıqları və qəzetə təqdim olunmuş kənar müəlliflərin yazıları olub.




Bu gün qəzetin ən böyük uğurlarından biri də “Şərq qapısı” qəzetinə istinadın çoxalması, ölkənin digər media qurumlarının qəzetin internet resurslarına istinad edərək informasiyalar paylaşmasıdır. “Məntiqə sığmayan məntiq imtahanı” adlı yazı və ordubadlı uzunömürlü ailə haqqında material ölkə mediasında ciddi marağa səbəb olub. Eyni zamanda 7 fevral tarixdə keçirilən prezident seçkiləri və 1 sentyabr tarixdə keçirilən parlament seçkiləri ilə bağlı qəzetin xüsusi nömrələri dərc olunub. Naxçıvan Muxtar Respublikasındakı seçki prosesinə uyğun olaraq materialların rəsmi “Azərbaycan” qəzetində dərc olunması təmin edilib.

Qəzetin PDF variantları çap mediası məhsullarının elektron yayım platformasına, e-köşkə *(e-kiosk.az)* yerləşdirilir. Beləliklə, oxucular “Şərq qapısı” qəzetində dərc olunan muxtar respublika ilə bağlı məlumatlardan, yeniliklərdən daim xəbərdar olmaqla yanaşı, sərbəst şəkildə rəqəmsallaşdırılmış arxivdən faydalana bilərlər.

Naxçıvanımızın bugünkü xoş gününü gələcək nəsillərə çatdırmaq üçün salnaməyə çevrilən qəzetin rəsmi sosial hesabları tələbkar oxucu kütləsinə ünvanlanmış ciddi rəqabət mühitində fəaliyyət göstərən sektora çevrilib. Təkcə 2024-cü ilə nəzər saldıqda görərik ki, fəaliyyətimizin əhatə dairəsi daha da genişlənib. Qəzetin intellektual potensialından istifadə edərək əməkdaşlar tərəfindən müxtəlif dövrlərdə Ulu Öndər Heydər Əliyevin, Onun layiqli davamçısı cənab İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı müxtəlif materiallar hazırlanıb ictimaiyyətə təqdim edilib. Hazırda sayta aylıq baxış statistikası 20 mini ötüb.

2024-cü ildə “Şərq qapısı” qəzetinin sosial şəbəkə hesabları gücləndirilib, izləyici sayı çoxalıb. “Instagram”da izləyici sayı 16 mini ötüb. Qəzet “Facebook”da 3 minə yaxın, “Tiktok”da 12 mindən çox izləyici kütləsinə sahibdir. Xüsusilə paylaşılan videolar izləyicilər tərəfindən böyük marağa səbəb olub.

Qəzetin videoqraflarının hazırladığı videoçarxlar sosial şəbəkə hesablarında yüksək baxış və bəyənmə sayı toplayıb. İl ərzində qəzetin əməkdaşları tərəfindən hazırlanan 700-ə yaxın video “Instagram” və 272 video isə “Tiktok” sosial platformasında yerləşdirilib. AZAL təyyarəsinin Aktauda qəzaya uğraması nəticəsində həlak olanların əziz xatirəsinə həsr olunan videomateriala “Tiktok” və “Instagram” sosial platformalarında 1 milyondan çox baxış olub.

Bir kollektiv olaraq milli maraqlarımızından çıxış edərək Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün rus dilinə tərcümə olunan məqalələr qəzetə daha bir yenilik gətirdi. Belə ki, 2024-cü ildən başlayaraq qəzetin əməkdaşları tərəfindən muxtar respublika ilə bağlı materialların rus dilinə tərcümə edilərək qəzetin saytına yerləşdirilməsi təmin edilib.

“Şərq qapısı” qəzetinin bu ildən başlayaraq avadanlıqlarının yenilənməsi nəzərdə tutulub. Elə bu səbəbdən tender elan olunub və qəzetə avadanlıqların alınması ilə bağlı keçirilən tenderin qalibi olub. Daha bir uğurumuz isə qəzetin şöbə müdiri Nail Əsgərovun Medianın İnkişafı Agentliyinin elan etdiyi müsabiqənin qalibi olması idi.

Qısa zaman ərzində qəzet öz maraqlı, obyektiv informasiyaları ilə təkcə ölkə oxucularının deyil, həm də xarici ölkələrdə yaşayan azərbaycanlıların mütəmadi izlədikləri bir internet resursa çevrilib. Buna səbəb isə xarici ölkələrdə yaşayan öz sözünü demiş ziyalıların, istedadlı gənclərin qəzetimizdə muxtar respublikamız, eləcə də ölkəmizlə bağlı maraqlı yazıların dərc olunmasıdır.

Qəzetin 2024-cü ildəki rəngarəng nailiyyəti vahid uğurdur. Hər bir əməkdaş yalnız bir amala xidmət edir, bir dəmirə döyür. Bu qəzet həm də bizim üçün ikinci evdir – istənilən çətinliklərin, enişli-yoxuşlu yolların aşılmasında bir ailə kimi birlikdə addımlayırıq. Biz dövlətimizin və dövlətçiliyimizin müdafiəsində dayanan jurnalistlərik və eyni zamanda silahımız qələm olan əsgərlərik. Bu mühüm faktor artıq qəzetimizin daxili ənənəsi kimi formalaşıb. Artıq yenilikçi addımları ilə tanınan 103 yaşlı qəzetə daha böyük uğurlar diləyir, hər addımda, hər qərarda bu gün olduğu kimi daim həmrəy olmağı arzu edirik! Birliyimiz gücümüzdür!

**Gülcamal TAHİROVA**

## Elan

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 25 dekabr 2024-cü il tarixli 6-VII FR nömrəli Fərmanına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidmətinin əsasında “Dövlət Ekoloji Təhlükəsizlik Xidməti” və “Dövlət Ekoloji Ekspertiza Agentliyi”nin yaradılması ilə əlaqədar Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidməti (VÖEN: 0201522781) ləğv edilir və bununla bağlı Ləğvetmə Komissiyası yaradılmışdır.

Kreditorlar 2 (iki) ay müddətində tələblərini Ləğvetmə Komissiyasına təqdim edə bilərlər.

Göstərilən müddətdən sonra tələblərə baxılmayacaqdır.

***Ünvan: Naxçıvan şəhəri,***
***Cəlil Məmmədquluzadə 42***
***Telefon: 545-72-58***

## *İtmişdir*

Ordubad şəhəri, Ə. Ağayev küçəsi 19 ünvanında yaşayan Nəzərov Baba Məmməd oğlunun və Nəzərov Nazim Məmməd oğlunun adına olan 87 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kənd sakini Həsənov Arif Qulu oğlunun adına olan JN-159[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək şəhəri, Qoşadizə məhəlləsində yaşayan Rüstəmova Təranə Kamil qızına məxsus 103013008894 reyestr nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Muxtar Respublikası Bodibildinq Federasiyasına məxsus möhür itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kəndində yaşamış Novruzova Gülüstan Fərhad qızının adına olan JN-575[A] nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Behrud kənd sakini Alməmmədov Hidayət Həsən oğlunun adına olan JN-43[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 404

*Nömrəyə məsul:* Aidə İbrahimova, Gülcamal Tahirova, Ceyhun Məmmədov
*Dizayner:* Tacirə Vəliyeva

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*